RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 261 (8284) BAZAR, 24 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Şəhid ailələri və müharibə əlillərinin sosial problemləri ardıcıl həll olunur

**Dövlət şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial rifahının yaxşılaşdırılmasına xüsusi önəm verir. Pensiya və müavinətləri mütəmadi artırılır, minik avtomobili ilə təmin edilir, mənzillə təminatları unudulmur.**

Bu il noyabrın 20-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Abşeron rayonunun Məmmədli kəndində yeni yaşayış binalarından alınmış tam təmirli 50 mənzilin şəhid ailələrinə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə verilməsi bunu bir daha təsdiq edir.

Xatırladaq ki, ötən il şəhid ailələri və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil verilib. Cari ildə həmin kateqoriyadan olan şəxslərin 934 mənzil və fərdi yaşayış evi ilə təmin edilməsi planlaşdırılıb.

Cari ildə bu kateqoriyadan olan insanlara 347 mənzil və fərdi yaşayış evi verilib. İlin sonunadək daha çox ailəni sevindirmək üçün yeni mənzillərin alınması və fərdi yaşayış evlərinin tikilməsi davam edir. Beləliklə, ilin axırınadək mənzil alacaq şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, eyni zamanda fərdi evlərlə təmin ediləcək bu kateqoriyadan olanların sayı daha çox olacaq.

Təkcə paytaxtda deyil, bölgələrdə yaşayan bu kateqoriyadan olan insanların da mənzil və fərdi evlərlə təmin edilməsi diqqət mərkəzindədir. Cari il noyabrın 9-da 41 fərdi yaşayış evi şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin istifadəsinə verilib. Həmin 41 fərdi yaşayış evi Hacıqabul, Ucar, İmişli, Qazax, Saatlı, Sabirabad, Ağcabədi, Ağdam və Zərdab rayonlarında tikilib. Bununla da şəhid və əlil ailələrinin bir qrupunun ev problemi həll edilib.

Növbəti belə tədbir noyabrın 14-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran rayonunda və Abşeron rayonunun Mehdiabad qəsəbəsində yeni yaşayış binalarından alınmış mənzillərin bir qrup şəhid ailəsi və müharibə əlillərinə verilməsi olmuşdur. Qeyd edək ki, şəhid ailələri və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə nazirlik tərəfindən indiyədək 7040 mənzil və fərdi yaşayış evi verilmişdir.

Yeni mənzil alan şəhid ailələri və Qarabağ müharibəsi əlilləri dövlətin onların sosial müdafiəsinə göstərdiyi qayğıdan razıdırlar. Onlar şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə göstərdiyi yüksək qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Vurğulayaq ki, təqdim edilən bütün mənzil və fərdi yaşayış evlərində sakinlər üçün yüksək şərait yaradılıb. Bu istiqamətdə görülən işlər uğurla davam etdiriləcək.

Şəhid və Qarabağ müharibəsi əlilləri ailələrinə edilən güzəştlər təkcə mənzillə məhdudlaşmır. Prezident İlham Əliyevin qayğısı sayəsində şəhid ailələri üçün aylıq təqaüd 242 manatdan 300 manata çatdırılıb, müharibə əlilləri üçün sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb. I qrup əlilliyi olanlara (o cümlədən I qrup müharibə və 20 Yanvar əlillərinə) qulluq edənlər və müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü təsis olunub. Mənzillərlə yanaşı, indiyədək bu kateqoriyadan olan vətəndaşlara 6400-dək minik avtomobili verilib.

*"Azərbaycan"*

# Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan "Azərbaycan" pavilyonunun açılış mərasimi olub

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib

**Noyabrın 23-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunun əsaslı bərpa və təmirdən sonra açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak ediblər.

Bu il əlamətdar yubileyini - 80 illiyini qeyd edən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi hazırda yenə də izləyiciləri müxtəlif ölkələrin pavilyonları, özünəməxsus eksponatlar ilə heyrətə gətirir. Dünyanın 50 nəhəng sərgi mərkəzi sırasına daxil olan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi ildə 30 milyon izləyici qəbul edir.

*Ardı 2-ci səh.*





Bələdiyyə seçkiləri

# Təşviqat qaydalara uyğun aparılmalıdır

## Bələdiyyə seçkilərində təşviqatın aparılmasına dair ümumi tələblər

**Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrə seçkilər Seçki Məcəlləsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təyin edilir. Xatırladaq ki, növbəti bələdiyyə seçkiləri MSK-nın 18 oktyabr 2019-cu il tarixli 7/24 saylı qərarı ilə 2019-cu il dekabrın 23-nə təyin edilib.**

Seçkilərin hazırlanıb keçirilməsi üçün əsas hərəkət və tədbirlər, onların ardıcıllığı və həyata keçirilməsi müddətləri üzrə Təqvim Planı da təsdiq olunub.

Seçki Məcəlləsinin tələblərinə və Təqvim Planına uyğun olaraq noyabrın 30-dan etibarən seçki kampaniyasında əsas mərhələlərdən biri olan seçkiqabağı təşviqat mərhələsi başlanacaq.

Seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılır, yəni səsvermə günü və ondan əvvəlki gün saat 08:00-dan baslayaraq hər hansı seçkiqabağı təşviqat aparmaq qadağandır.

Dövlət Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə uyğun olaraq vətəndaşlar, siyasi partiyalar tərəfindən azad seçkiqabağı təşviqatın aparılması üçün şərait yaradılmasını təmin edir, habelə qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının seçkiqabağı təşviqat aparması üçün kütləvi informasiya vasitələrindən bərabər istifadə şərtlərini müəyyənləşdirir.

Seçkiqabağı təşviqat bələdiyyə seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyalar blokları və bu subyektlərin adından onların səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxsləri (onlara verilmiş səlahiyyətlər daxilində) tərəfindən aparıla bilər.

Qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının qanunun yol verdiyi formalarda və üsullarla seçiciləri seçkilərdə iştirak etməyə və ya etməməyə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun lehinə və ya əleyhinə səs verməyə çağırışlar formasında seçkiqabağı təşviqat aparmaq hüququ vardır.

*Ardı 7-ci səh.*

# Mehriban dostluq, strateji tərəfdaşlıq daha da möhkəmlənir



## Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiya Federasiyasına səfəri ikitərəfli əlaqələrin inkişafına güclü impuls verdi

Bu gün Azərbaycan beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına və qlobal təhlükəsizlik məsələlərinə öz töhfəsini verən regional güc kimi qəbul edilir.

Son illər ölkənin dayanıqlı inkişafını şərtləndirən əsas faktorlardan biri isə qonşu dövlətlərlə siyasi-iqtisadi və humanitar əlaqələrin genişləndirilməsidir. Bu xüsusda Azərbaycanla Rusiya Federasiyası arasında inkişaf etməkdə olan hərtərəfli münasibətləri və dərinləşməkdə olan siyasi əlaqələri göstərə bilərik.

Müstəqil xarici siyasət yürüdən ölkə kimi Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, dost və mehriban qonşu hesab edir. İki dövlətin başçıları arasında dostluq əlaqələri münasibətlərin dinamik inkişafına müsbət töhfə verir və cənab İlham Əliyevlə Vladimir Putin ölkələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiblər. Mübaliğəsiz demək olar ki, bu gün Azərbaycan-Rusiya münasibətləri yüksəliş mərhələsindədir. İki ölkə ictimai-siyasi, ticari-iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. Rusiya Federasiyasının subyektləri ilə Azərbaycanın regionları arasında əlaqələr səmərəli və dinamik inkişaf edir.

Dövlət başçılarının qarşılıqlı işgüzar səfərləri bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsinə güclü təkan verir.

*Ardı 5-ci səh.*

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri zati-aliləri cənab Jelko Komşiçə

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, Bosniya və Herseqovinanın dost xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2019-cu il*

## Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması və kanalın suburaxma qabiliyyətinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abşeron yarımadasında kənd təsərrüfatına yararlı torpaqların suvarılması vəziyyətinin yaxşılaşdırılması məqsədilə Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması və kanalın suburaxma qabiliyyətinin artırılması üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Noyabrın 14-15-də gözəl ölkənizdə keçirilən Dünya dini liderlərinin II Bakı Sammitində mənə çıxış etmək imkanı yaratdığınıza görə Zati-alinizə öz minnətdarlığımı bildirmək istəyirəm. Həmçinin Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarının şərəfinə verilən ziyafətə məni dəvət etdiyinizə və orada Sizinlə apardığımız müzakirələrə görə təşəkkür edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə "Bakı Prosesi" çərçivəsində dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynayır.

Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi on ildən çoxdur ki, müxtəlif mədəniyyətlər, dinlər və sivilizasiyalar arasında tolerantlıq, hörmət və anlaşmanın təşviq olunmasında aparıcı rol oynamaqla, Azərbaycanı təkcə regionda deyil, həm də bütün dünyada multikulturalizmin mərkəzi kimi tanıtmışdır.

Mən, həmçinin Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadənin tolerantlıq, dinc birgəyaşayış və dinlərarası dialoqun möhkəmləndirilməsində dini liderlərin rolunun gücləndirilməsinə göstərdiyi dəstəyini yüksək qiymətləndirirəm. Bu məqsədlər BMT Sivilizasiyalar Alyansının məqsədləri ilə üst-üstə düşür.

Dünya dini liderlərinin Bakı Sammitinin növbəti illərdə keçiriləcək tədbirlərində Zati-alinizə daha böyük uğurlar arzulayıram.

Fürsətdən istifadə edib, Sizə bir daha yüksək ehtiramımı bildirmək istəyirəm.

***Migel Anhel MORATİNOS,***
***BMT Baş katibinin müavini,***
***BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi***

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu!

Azərbaycana səfərim zamanı mənə və səfər yoldaşlarıma göstərilən səmimi qəbula görə Sizə ürəkdən təşəkkür edirəm.

Dünya dini liderlərinin II Bakı Zirvə Görüşündə iştirak etmək imkanına görə şad oldum. Burada biz Sizinlə və müxtəlif dinlərin nümayəndələri ilə birlikdə müasir dövrün aktual məsələlərini müzakirə edə bildik.

Sizinlə və Sizin ailənizlə ünsiyyət məndə ən səmimi hisslər yaratdı. Şadam ki, Sizin şəxsinizdə həssas insan və müdrik siyasətçi ilə görüşdüm, Sizə xas olan güclü mühakimə qabiliyyətinə, ictimai və beynəlxalq problemləri dərindən bildiyinizə bir daha əmin oldum. Sizin çox gözəl ölkənizə səfərim qəlbimdə xoş xatirə kimi qalıb.

Sizə məsul dövləti fəaliyyətinizdə möhkəm güc və uğurlar, Azərbaycan sakinlərinə sülh və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və Bütün Rusiyanın patriarxı***

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu.

Hörmətli cənab Prezident!

Dünya dini liderlərinin II Bakı Sammitinə və zati-alinizin yüksək təqdiri ilə şərəfləndirdiyi möhtərəm Şeyxülislam Allahşükür Paşazadənin 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi münasibətilə rəhbərlik etdiyim geniş tərkibli nümayəndə heyəti ilə noyabrın 14-17-də ölkənizə səfərim zamanı mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən xoş münasibətə və qonaqpərvərliyə görə təşəkkürlərimi ifadə etmək istərdim.

Xüsusilə səfərimizin əvvəlindən ölkənizdən ayrılana qədər bizi müşayiət edən, dəyərli vaxtlarını ayıraraq bizi tək qoymayan əməkdaşlarınızın göstərdikləri nəzakəti təqdirlə qarşıladığımızı bildirmək istəyirəm. Düşünürəm ki, gözəl ölkənizə nümayəndə heyətimizlə etdiyim səfər həm qurumlarımız, həm də ölkələrimiz arasındakı əlaqələrin daha da inkişafına töhfə verəcək.

Fürsətdən istifadə edib zati-alinizə Uca Allahdan cansağlığı və xoşbəxtlik diləyir, Sizin şəxsinizdə azərbaycanlı qardaşlarımıza sülh, əmin-amanlıq və rifah arzulayıram.

*Dərin səmimiyyətlə,*

***Professor Dr.Ali ERBAŞ,***
***Türkiyənin Diyanət İşləri Başqanı***

# Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan "Azərbaycan" pavilyonunun açılış mərasimi olub









*Əvvəli 1-ci səh.*

Bu gündən isə Azərbaycanın da Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində öz evi var. Heydər Əliyev Fondunun dəstəyi ilə buradakı "Azərbaycan" pavilyonu əsaslı bərpa olunub.

Nadir sərgi şəhərciyi hesab olunan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin incilərindən sayılan "Azərbaycan" pavilyonu 1939-cu ildə tikilib. Milli pavilyonumuzda bərpa işləri onun binasının tarixi görünüşü, memarlıq-etnik özünəməxsusluğu saxlanılmaqla həyata keçirilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonu Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin direktoru Sergey Şaqurov qarşıladı.

Birinci vitse-prezident Mehriban Əliyeva, Federasiya Şurasının sədri Valentina Matviyenko və Moskva şəhəri merinin müavini Natalya Serqunina "Azərbaycan" pavilyonunun rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonra pavilyonun yenidənqurmadan əvvəlki və təmir işləri aparılan zaman görüntüləri əks etdirən stendlə tanışlıq oldu.

Hazırda nadir memarlıq siması bərpa olunan milli pavilyon, həmçinin yeni məzmunla izləyicilərini qarşılayır. Burada yeddi zalda xalqımızın qədim tarixini, mədəniyyətini, ənənələrini əks etdirən eksponatlarla yanaşı, müstəqil Azərbaycanın tarixi, ölkəmizin iqtisadi-siyasi, humanitar sahələrdəki nailiyyətləri, turizm potensialı barədə məlumatlar əldə etmək mümkündür.

Bərpa zamanı ornamentlərlə bağlı iş onların əvvəlki qatlarının təmizlənməsi ilə başladı və ilkin hesab edilən rəng çoxsaylı qatların altından üzə çıxarıldı. Birillik gərgin iş nəticəsində mərmər döşəmələr, sütunlar, divar və tavandakı naxışlar, kitabxana və oranjereya tamamilə bərpa olundu. İzləyiciləri sürprizlər də gözləyir. Belə ki, tapıntılardan biri bərpa işləri ilə məşğul olanları da təəccübləndirdi. Metal konstruksiyaların bərpası zamanı torpağa basdırılmış fəvvarə aşkar edildi. Onu çıxarıb bərpa etdilər və hazırda həmin fəvvarə "Azərbaycan" pavilyonunda qoyulub.

Daimi ekspozisiya zalında milli musiqi, xalçaçılıq, sənətkarlıq nümunələri sərgilənir. Həmçinin pavilyonda Azərbaycanın məşhur rəssamlarının əsərləri təqdim edilir. Pavilyonun ekspozisiya zalında, eyni zamanda, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, Azərbaycan-Rusiya əlaqələrinin genişlənməsində vacib rol oynamış ölkə ziyalıları barədə məlumatlar təqdim olunur. Burada ayrı-ayrı zallarda müxtəlif mövzularda mühazirə və konfransların keçirilməsi, musiqi proqramlarının, eləcə də turizm zonasında Azərbaycanın turizm imkanları barədə məlumatların təqdimatı nəzərdə tutulur.

"Ticarət evi" zonasında isə Azərbaycan istehsalı olan məhsullar təqdim edilir. Burada "Aznar", "Aspi Aqro" MMC, "Azersun Holding", "Şirvan Şərabları", "Gazelli Qrup", "Gilan" MMC, "İsmayıllı Şərab-2", "Balxurma" MMC, "Marandi" MMC, "Kənddən şəhərə" brendi, "Xurcun", "Viva" və digər yerli istehsalçıların məhsulları ilə tanış olmaq, eyni zamanda, milli suvenirlər əldə etmək mümkündür.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi "Ostankino" parkı ilə birləşdirildikdən sonra onun ümumi ərazisi 325 hektardan çoxdur. Burada memarlığın bir sıra şah əsərləri yer alıb, 49 obyekt, o cümlədən "Azərbaycan" pavilyonu mədəni irs nümunəsi kimi tanınıb.

Kitabxana və oxu zalında müxtəlif kitablar, o cümlədən Heydər Əliyev Fondunun nəşrləri ilə tanış olmaq mümkündür.

Pavilyonun açılışı ərəfəsində Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan" pavilyonunun tarixini əks etdirən kitab nəşr olunub. Kitabda müxtəlif materiallar, arxiv fotoları əsasında "Azərbaycan" pavilyonunun tarixi, burada aparılan kompleks bərpa işlərinin xronikası təqdim edilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etdi.



# Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Hörmətli Valentina İvanovna.

Hörmətli qonaqlar, əziz dostlar.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" milli pavilyonunun açılışında sizi ürəkdən salamlayıram. Sizin hamınızı yaxın vaxtlarda 80 yaşı tamam olmuş bu əfsanəvi sərgi məkanının yubileyi münasibətilə təbrik etmək istəyirəm.

İlk növbədə, hörmətli Valentina İvanovnaya bizim milli pavilyonun açılışında iştirak etdiyinə, ölkəmizə səmimi, mehriban münasibətinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü tədbirdə iştirak edən rusiyalı qonaqlarımızın hamısını salamlamağa şadam. Öz həmvətənlərimizi də görməyə şadam.

Bu gün Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi nadir sərgi şəhəridir. O, dünyanın 50 ən iri sərgi mərkəzi sırasına daxildir. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə hər il 30 milyona yaxın qonaq gəlir. Əlbəttə, bu gün mən qürur hissi keçirirəm ki, Moskvanın bu tarixi memarlıq mərkəzində bərpadan sonra "Azərbaycan" milli pavilyonu açılır.

Pavilyon öz qapılarını bütün qonaqların üzünə açır. Bizim ölkəmizə milli pavilyonun bərpasında iştirak etmək imkanına görə Rusiya Federasiyasının rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə, Moskva şəhərinin hökumətinə, Moskvanın meri cənab Sobyaninə təşəkkürümü bildirmək istəyirəm.

"Azərbaycan" pavilyonu 1939-cu ildə məşhur Azərbaycan memarları Sadıq Dadaşov və Mikayıl Useynovun layihəsi üzrə yaradılıb. Sonrakı illərdə Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin ərazisindəki bir çox başqa pavilyonlar kimi bu pavilyon da çoxsaylı dəyişikliklərə məruz qalıb, yenidən qurulub. Məsələn, 1966-cı ildə bu nadir memarlıq binasının fasadı bütöv metal qutu ilə örtülüb, bu isə heç şübhəsiz, onun simasını tamamilə dəyişib. Bir sözlə, sonrakı illərdə pavilyon özünün memarlıq, funksional və milli identikliyini itirib. 2014-cü ildə Moskva şəhəri hökumətinin təşəbbüsü ilə keçmiş müttəfiq respublikalara öz milli pavilyonlarının bərpasında iştirak etmək təklif olunanda Azərbaycan bu xəbəri böyük coşqu ilə qəbul etdi və hazırlıq işlərindən sonra 2017-ci ildə bərpa işləri başlandı. Pavilyonda bərpa işləri Azərbaycan dövlətinin dəstəyi və Heydər Əliyev Fondunun rəhbərliyi ilə aparılıb. Bu binanın ilkin memarlıq-etnik simasını qaytarmaq məqsədi qarşıya qoyulmuşdu. Çox gərgin iş aparıldı, Azərbaycandan və Rusiyadan ən yaxşı mütəxəssislər, memarlar, rəssamlar, bərpaçılar, mədəniyyət tarixçiləri dəvət edildi. Bu gün nəticəni görürük. Bu binanın tamamilə bərpa olunmuş autentikliyini görürük. Şübhəsiz, bu cür gözəl nəticə komanda şəklində işin yekunudur. Bu gün mən bizim milli pavilyonun bərpası üçün səy göstərənlərin hamısına təşəkkürümü bildirmək istəyirəm.




"Azərbaycan" pavilyonunun zahiri simasının bərpa olunması ilə bərabər, o, həm də yeni məzmun kəsb edib. Burada bizim pavilyonun qonaqları xalqımızın zəngin çoxəsrlik tarixi, mədəniyyəti, ənənələri ilə tanış ola, eyni zamanda, müasir müstəqil Azərbaycan haqqında, onun ictimai-siyasi, iqtisadi, humanitar sahələrdə uğurları barədə informasiya əldə edə bilərlər. Əlbəttə, şübhə etmirəm ki, gələcəkdə bu məkanda təşkil ediləcək tədbirlər, görüşlər, sərgilər Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradacaq.

Rusiya ilə Azərbaycan arasında münasibətlər qədim və möhkəm dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanır. Bu gün biz öz münasibətlərimizi strateji tərəfdaşlıq adlandırırıq. Fürsətdən istifadə edib, məni Rusiyaya rəsmi səfərə dəvət etdiyinə və məni "Dostluq" ordeni ilə təltif etdiyinə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istəyirəm. Bu ordeni almaq mənim üçün böyük şərəfdir və mən bu mükafatı Rusiya-Azərbaycan dostluq münasibətlərinin daha bir təsdiqi kimi qəbul edirəm.

*Ardı 3-cü səh.*

# Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan “Azərbaycan” pavilyonunun açılış mərasimi olub

*Əvvəli 2-ci səh.*

Bu gün ölkələrimiz arasında fəal siyasi dialoq mövcuddur. Dövlət başçıları səviyyəsində müntəzəm görüşlər bunu təsdiq edir. Azərbaycanın və Rusiya Federasiyasının prezidentləri arasında etimada əsaslanan dostluq münasibətləri, demək olar ki, bütün sahələrdə bizim ikitərəfli əlaqələrin dinamik və intensiv inkişafını təyin edir. Bizim uğurlu iqtisadi əməkdaşlığımız öz bəhrələrini verir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalı üzrə isə birinci yeri tutur. Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi davamlı şəkildə artır. Keçən il bu göstərici 19 faiz artaraq 2,6 milyard ABŞ dollarına bərabər olub, cari ilin 9 ayı ərzində isə 26 faiz artım müşahidə olunur. Sevindirici haldır ki, qarşılıqlı investisiyaların həcmi artır. Rusiya Azərbaycana sərmayə yatırır. Azərbaycanda Rusiya investisiyalarının həcmi 4,9 milyard, o cümlədən qeyri-neft sektoruna sərmayə yatırımının həcmi 1 milyard dollardır. Azərbaycanın Rusiya iqtisadiyyatına investisiyaları 1,2 milyard dollar təşkil edir.

Rusiyadan Azərbaycana səfər edən turistlərin sayı durmadan artır. Keçən il 900 min rusiyalı bizim ölkəmizə səfər edib, cari ildə bu göstəricilərin artacağını gözləyirik.

Bizim ikitərəfli əlaqələrimizdə regionlararası əməkdaşlıq mühüm yer tutur. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə həm iqtisadi, həm də humanitar sahədə əlaqələr qurub. Bu gün mənim səfərim çərçivəsində hörmətli Valentina İvanovna ilə birlikdə X yubiley Regionlararası Forumun açılışında iştirak edəcəyik.

Ölkələrimizi bir-birinə bağlayan humanitar əlaqələri xüsusi vurğulamaq istəyirəm. Bildiyiniz kimi, Azərbaycanda Rusiya mədəniyyətinə, rus dilinə dərin hörmətlə yanaşırlar. Ölkəmizdə rus dilinin öyrənilməsi tam həcmdə qorunub saxlanılıb. 338 məktəbdə tədris rus dilində aparılır, Azərbaycanın 14 dövlət ali məktəbində rusdilli bölmə var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi üzrə pilot layihəsi həyata keçirilir. Ali təhsil səviyyəsində də uğurlu əməkdaşlıq edirik. Bizim paytaxtımızda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə icrasına başlanıb. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Bizim tələbələrin Rusiyada təhsil almasının dəstəklənməsinə görə Rusiya hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycanda çoxminli rus icması ölkəmizin ümumi inkişafına layiqli töhfə verir. Bir sözlə, humanitar sahədə münasibətlərimizin nümunəvi olduğunu desəm, zənnimcə, yanılmaram.

Əziz dostlar, sizi bu əlamətdar hadisə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin ərazisində “Azərbaycan” pavilyonunun açılışı münasibətilə bir daha təbrik edirəm. Əminəm ki, istər iqtisadi, istərsə də humanitar sahədə Azərbaycan-Rusiya münasibətlərinin daha da inkişaf etdirilməsi üçün mövcud potensial gələcəkdə xalqlarımızın rifahı naminə uğurla reallaşdırılacaq. Diqqətinizə görə sağ olun. Sizə möhkəm cansağlığı və uğurlar arzu edirəm. Sağ olun.

❖ ❖ ❖

Sonra Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko çıxış etdi.

## Federasiya Şurasının sədri Valentina Matviyenkonun çıxışı





- Çox hörmətli Mehriban Arif qızı.

Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Biz bu gün belə təntənəli şəraitdə əlamətdar bir hadisə münasibətilə toplaşmışıq. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin incilərindən biri əsaslı bərpadan sonra yenidən öz qapılarını moskvalılara və paytaxtımızın qonaqlarına açır. “Azərbaycan” pavilyonu Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin yaşıdıdır və hörmətli Mehriban Arif qızının artıq dediyi kimi, düz 80 il əvvəl açılıb. O, görkəmli Azərbaycan arxitektorları tərəfindən tikilib və deyərdim ki, həmin vaxt da, bu gün də memarlıq incisidir.

Əlamətdar haldır ki, pavilyonun açılışında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Arif qızı Əliyeva iştirak edir. Bu, bugünkü hadisəyə xüsusi əhəmiyyət qazandırır. Mən çox şadam ki, Mehriban Arif qızı, dünən Rusiya Federasiyasının Prezidenti Sizə “Dostluq” ordeni təqdim edib. Bu, Sizin şəxsən Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə və bir çox başqa məsələlərə, mədəniyyətin inkişafına, humanitar layihələrə Sizin töhfənizin qiymətləndirilməsidir. Həmkarlar, gəlin Mehriban Arif qızı Əliyevanı yüksək dövlət mükafatı münasibətilə bir daha təbrik edək.

Biz bilirik ki, Prezident İlham Əliyev və Siz ölkələrimiz arasında dostluğun möhkəmlənməsi, o cümlədən mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün çox işlər görürsünüz. Biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan arxitektorlarının düşündüyü kimi, “Azərbaycan” pavilyonu ziyarətçilərə köhnə Bakının küçələrini xatırladacaq, onları sanki günəşli Azərbaycan torpağına aparacaqdı. Pavilyonun bəzədilməsində nadir ornament kompozisiyalarından, şəbəkə freskalarından, Azərbaycan ustalarının mismardan istifadə etmədən kiçik qoz ağacı detallarından yığdıqları şəbəkələrdən istifadə olunmuşdu. Burada milli ənənələr, milli mətbəx yer almışdı, amma zaman keçir, zövqlər dəyişirdi. 1960-cı illərdə pavilyon yenidən quruldu. Təəssüf ki, nadir dəyərə malik olanların bir çoxu məhv edildi.





Beş il əvvəl “Azərbaycan” pavilyonunun onun əvvəlki tarixi görkəmində bərpa edilməsi haqqında razılıq əldə olundu. 2016-cı ildə “Azərbaycan” pavilyonu Azərbaycan tərəfinə təhvil verildi. Ötən müddətdə Azərbaycanın və Rusiyanın nadir ustaları tərəfindən belə incə, dəqiq, gözəl işlər görülüb. Bu gün bizim qarşımızda bərpa olunmuş belə gözəl pavilyon var. İstərdim ki, hər şeydən əvvəl, pavilyonun yenidən qurulmasına öz əməyini sərf etmiş bərpaçılara, ustalara təşəkkürümü ifadə edim. Bütün bərpa işləri hörmətli Mehriban Arif qızının başçılıq etdiyi Heydər Əliyev Fondunun rəhbərliyi ilə aparılıb. Göstərdiyiniz dəstəyə və burada yerinə yetirilmiş nadir işlərə görə Sizə və fonda “Çox sağ olun!” deyirəm. Yeri gəlmişkən, demək istəyirəm ki, Rusiyada Heydər Əliyevi dəyişməz olaraq hər zaman böyük səmimiyyət və böyük ehtiramla xatırlayırlar.

Bərpa işlərinin gedişinə böyük diqqət yetirən, zəruri təşkilati yardım göstərən Moskva meri Sergey Semyonoviç Sobyaninə də minnətdarlığımı çatdırmaq istəyirəm. Vitse-mer Natalya Alekseyevna Serqunina burada iştirak edir, zəhmət olmasa, Sergey Semyonoviçə böyük minnətdarlığımı çatdırın. Həmçinin Azərbaycanın Rusiyada fövqəladə və səlahiyyətli səfiri, artıq Rusiya ilə Azərbaycan arasında dostluğun bir növ rəmzinə çevrilmiş və bərpa işlərinin gedişinə də böyük diqqət yetirən Polad Bülbüloğluna da təşəkkür etmək istəyirəm.

Hesab edirəm ki, bugünkü pavilyonun açılışı böyük hadisədir. Bu, ölkələrimiz arasında dostluğun əlaməti və rəmzidir. Əminəm ki, bu pavilyon Azərbaycanın Moskvadakı qeyri-formal mədəniyyət nümayəndəliyi statusunu daşıyacaq. Bilirəm ki, pavilyonun rəhbərliyinin müxtəlif sərgilərin, konfransların, digər tədbirlərin keçirilməsi üzrə böyük planları var. Beləliklə, Moskva sakinləri də, paytaxtın çoxsaylı qonaqları da bu məkanda həm Azərbaycan xalqının qədim mədəniyyəti və ənənələri, tarixi və əlbəttə, həm də Azərbaycanın müasir uğurları ilə tanış ola biləcəklər. Biz sizin əsl dostlarınız kimi, ölkənin necə dəyişməsi, ölkədə iqtisadi və sosial inkişaf, vətəndaşların rifahının yaxşılaşdırılması istiqamətində görülən böyük işlərə görə çox şadıq və bunlarla fəxr edirik. Bakı çox gözəlləşib, hər dəfə səfər edəndə valeh olursan, həmişə yeni nə isə görürsən. Ona görə də təəccüblü deyil ki, Rusiyadan turistlərin sayı bu cür templərlə artır. Bakı da, çox gözəl ölkə olan Azərbaycan da olduqca qonaqpərvər və xoşniyyətlidir. Əminəm ki, bizim turistlərin sayı gələcəkdə də artacaq. Biz isə Azərbaycandan Rusiyaya gələn turistlərin sayının artmasında maraqlıyıq. Həmçinin bunun üçün də şərait yaradacağıq.

Mən hamını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istəyirəm. Düşünürəm ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun açılışı 2020-ci ilə planlaşdırılan Azərbaycan Mədəniyyəti Günlərinin ərəfəsidir. Bu yaxınlardakı səfərim zamanı Azərbaycanda Rusiya Federasiyası Mədəniyyət Günlərinin açılışını etmək mənim üçün böyük şərəf idi. Bizim təşkil etdiyimiz mədəniyyət tədbirlərinə necə böyük marağın olduğunu bilirəm.

Hörmətli Mehriban Arif qızı, biz Azərbaycanın mədəniyyət təmsilçilərini də bu cür səbirsizliklə Rusiyada gözləyirik. Biz Azərbaycanı sevirik. Biz Azərbaycan mədəniyyətini sevirik. Əminəm ki, Mədəniyyət Günləri böyük uğurla keçəcək.

Bir daha hamını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istəyirəm. Hörmətli Mehriban Arif qızı, Rusiyanın ünvanına söylədiyiniz sözlərə və əməkdaşlığımızın gələcək inkişafı üçün göstərdiyiniz səylərə görə Sizə “Çox sağ olun!” deyirəm. Sağ olun.

❖ ❖ ❖

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun açılışını tarixi hadisə adlandırdı. Səfir bildirdi ki, vaxtilə bu pavilyonda Azərbaycanın layiqincə təmsil olunması üçün bütün işlər görülmüşdü və bu gün Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə pavilyonumuz yenidən öz fəaliyyətini bərpa edir.

Qeyd edək ki, bu layihə mədəniyyətlərarası və millətlərarası dialoq, xalqların bir-birinə yaxınlaşması baxımından böyük rol oynayır.

# Regionlararası forumlar əlaqələrin genişlənməsində mühüm rol oynayır

## Birinci vitse-prezident Mehriban Əliyeva Moskvada X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko noyabrın 23-də Moskvada işini Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki “Kosmos” binasında davam etdirən X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak ediblər.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan və Rusiya iqtisadiyyatlarının ən perspektivli sahələri barədə müzakirələr aparılan forumda Birinci vitse-prezident Mehriban Əliyeva və Federasiya Şurasının sədri Valentina Matviyenko çıxış ediblər.**





## Federasiya Şurasının sədri Valentina Matviyenkonun çıxışı

- Möhtərəm Mehriban Arif qızı.

Hörmətli forum iştirakçıları.

Mən Sizi Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində, əfsanəvi “Kosmos” pavilyonunda X yubiley Rusiya-Azərbaycan Regionlararası Forumunda salamlamağa ürəkdən şadam.

On il əvvəl ölkələrimizin prezidentlərinin dəstəyi ilə bu tədbirə start verilib. Bu illər ərzində forum bizim regionlararası əlaqələrimizin inkişafı üçün əsl səmərəli mexanizmə, regionların, ictimaiyyətin nümayəndələrinin, biznesin dialoqunda səmərəli məkana çevrilib. Bu yaxınlarda Federasiya Şurasının nümayəndə heyəti Bakıda rəsmi səfərdə olub.

Son illər Azərbaycanın paytaxtı xeyli gözəlləşib və Rusiya nümayəndə heyətinin bütün üzvlərində ən parlaq təəssüratlar, çox gözəl xatirələr doğurub. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə, hörmətli Mehriban Arif qızı, Sizə, bütün Azərbaycan xalqına Rusiyaya bu cür münasibətə, Sizin ənənəvi qonaqpərvərliyinizə, səmimi qəbullara görə çox təşəkkür edirik. Əlbəttə, imkandan istifadə edərək, bu çox gözəl auditoriyada Sizi, hörmətli Mehriban xanım, Rusiya Federasiyasının yüksək dövlət mükafatı - “Dostluq” ordeni ilə təltif olunmağınız münasibətilə bir daha təbrik etmək istəyirəm. Bu, Sizin ölkələrimiz arasında münasibətlərin inkişafı və möhkəmlənməsinə, Azərbaycanın ictimai və mənəvi həyatında rus dilinin və rus mədəniyyətinin qorunub saxlanılmasında xidmətlərinizə verilən yüksək qiymətdir.

Bu gün ölkələrimiz arasında münasibətlər əsl tərəfdaşlıq və qarşılıqlı faydalı xarakter daşıyır, mehriban qonşuluq, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır. Şübhəsiz ki, Rusiya və Azərbaycanın uğurlu əməkdaşlığının rəhni ölkələrimizin liderləri Vladimir Vladimiroviç Putin və İlham Heydər oğlu Əliyevin səmimi etimada əsaslanan münasibətləridir. Təkcə ötən ilin əvvəlindən prezidentlərimiz doqquz dəfə görüşüblər. Bizim münasibətlərimiz sanballı müqavilə-hüquq bazasına söykənir. Hazırda Azərbaycanla Rusiya arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Ötən il isə 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb. Bu proqram sənədi özündə 5 “yol xəritəsi”ni ehtiva edir. Onlar ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılmasına, nəqliyyat potensialının inkişafına, birgə müəssisələrin yaradılmasına, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsinə, həmçinin humanitar əlaqələrə istiqamətlənib.

*Ardı 4-cü səh.*

# Regionlararası forumlar əlaqələrin genişlənməsində mühüm rol oynayır

Əvvəli 3-cü səh.

Son illər Rusiya və Azərbaycan arasında iqtisadi-ticari əlaqələrin dərinləşdirilməsi üzrə çox böyük iş görülüb. Biz artıq onun praktik nəticələrini görürük. Ötən ilin yekunlarına görə qarşılıqlı əmtəə dövriyyəsi təxminən 14 faiz artıb və təqribən 2,5 milyard dollar olub. Rusiya idxal üzrə Azərbaycanın əsas ticarət və qeyri-xammal sektoru mallarının ixracı üzrə bir nömrəli tərəfdaşıdır. Sərmayələr üzrə əməkdaşlıq möhkəmlənir. Rusiyanın Azərbaycana birbaşa sərmayələri 1,5 milyard dollardır. Azərbaycan bazarında bizim təxminən 700 birgə müəssisəmiz fəaliyyət göstərir. Nəqliyyat sahəsində, xüsusən "Şimal-Cənub" dəhlizinin formalaşmasında intensiv qarşılıqlı fəaliyyət həyata keçirilir. Əminəm ki, o, Avrasiyanın ən mühüm nəqliyyat arteriyası olacaq, Rusiya və Azərbaycandan keçməklə Cənubi Asiyadan Avropaya yükdaşımalarını xeyli sürətləndirəcək.

İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya səmərəli fəaliyyət göstərir. Dünən bizim forum çərçivəsində geniş iclasın keçirildiyi işgüzar şuralarımız kooperasiyanın inkişafına böyük töhfə verirlər. Hesab edirəm ki, ölkələrimizin qarşılıqlı fəaliyyətinin yüksək səviyyəsi təkcə müvafiq idarələrin deyil, həm də işgüzar icmanın xidmətidir.

Cari ilin aprelində Bakıda kompleks işgüzar missiyanın yekunlarını yüksək qiymətləndiririk. Onun işində Rusiyadan 78 və Azərbaycandan 140 şirkət, həmçinin ölkələrimizin müvafiq nazirliklərinin və idarələrinin nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində informasiya texnologiyaları, kimya sənayesi, avadanlıq tədarükü üzrə razılaşmalar əldə olunub və bir sıra sazişlər imzalanıb. İqtisadiyyatda əlaqələrimizin gələcəkdə möhkəmlənməsi üçün regionlararası əməkdaşlıq mexanizmlərini maksimum işə salmaq zəruridir. Bu gün Rusiya Federasiyasının 72 subyekti Azərbaycanla ticari münasibətlər, humanitar əlaqələr saxlayır. Moskva, Moskva vilayəti, Sankt-Peterburq, Çelyabinsk, Volqoqrad, Saratov, Nijni-Novqorod, Həştərxan, Sverdlovsk vilayətləri, Stavropol və Krasnodar diyarları bu sahədə liderdirlər.

Rusiya və Azərbaycanın regionları, işgüzar dairələri və təşkilatları arasında praktik əməkdaşlığın genişlənməsində əsas rol Rusiya-Azərbaycan Regionlararası Forumuna məxsusdur. Bu məkana tələbat, onun iştirakçılarının sayı ildən-ilə artır. Ötən il dövlətlərimizin başçılarının həmin forumun işində iştirakı bu tədbirə xüsusi əhəmiyyət qazandırıb. Forumda çıxış edən Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin vurğulayıb ki, regionlararası əlaqələr bizim dövlətlərarası münasibətlərimizin ən mühüm tərkib hissəsidir.

Regionlararası əməkdaşlığın möhkəmlənməsində və genişlənməsində parlamentarilər mühüm missiyanı yerinə yetirirlər. Biz Rusiya Federasiyası Federal Məclisi və Azərbaycan Respublikasının Milli Məclisinin əməkdaşlığı üzrə parlamentlərarası komissiya çərçivəsində fəal iş aparırıq. Komissiyanın növbəti iclasının bu il dekabrın əvvəlində Sankt-Peterburqda keçirilməsi barədə razılıq əldə olunub. Bundan başqa, Rusiya və Azərbaycan parlamentariləri çoxtərəfli parlament təşkilatlarının səmərəli qarşılıqlı fəaliyyətini təmin ediblər. Biz Parlamentlərarası İttifaq, MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyası, ATƏT Parlament Assambleyası və digər beynəlxalq parlament strukturları çərçivəsində sıx əməkdaşlıq edirik. Məsələn, ölkələrimiz nasizmə bəraət qazandırılmasının, antihitler koalisiyasının döyüşçülərinin xatirəsinin təhqir edilməsinin yolverilməzliyi barədə MDB PA üzv dövlətlərinin parlamentlərinin rəhbərlərinin bəyanatını dəstəkləyiblər.

Rusiya-Azərbaycan əməkdaşlığında humanitar əlaqələr xüsusi rol oynayır. Bakı Slavyan Universiteti, əsl mənada, nadir təhsil, elm və mədəniyyət mərkəzidir. Onun divarları arasında rus dilinin öyrənilməsi, slavyan xalqlarının ənənələri və mənəvi dəyərlərinin qorunub saxlanılması üzrə böyük iş aparılır. Azərbaycanda, həmçinin Rusiyanın aparıcı ali məktəblərinin - Lomonosov adına Moskva Dövlət Universitetinin, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir. Rus dilində tədrisin aparıldığı təxminən 400 məktəb var. Bizim üçün millətlərarası ünsiyyət dili olan rus dilinə bu cür diqqətli münasibəti həmişə vurğulayır və buna görə Azərbaycan rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk.

Turizmin inkişafında müsbət dinamikanı məmnunluq hissi ilə qeyd etmək istəyirəm. Hörmətli Mehriban Arif qızı artıq bu barədə danışdı. Ötən il rusiyalı turistlərin sayı rekord həddə - təqribən 900 min nəfərə çatıb. Onların sayının ilbəil artması üçün gələcəkdə də səylər göstərmək lazımdır.

Mədəniyyət sahəsində daimi dialoq həyata keçirilir, mütəmadi olaraq sərgilər, teatr qastrolları, konsertlər, musiqi və kino festivalları təşkil olunur. Artıq 25 ildir ki, irimiqyaslı Mədəniyyət Günləri layihəsi həyata keçirilir. Bir daha demək istəyirəm ki, bu il Federasiya Şurası nümayəndə heyətinin səfəri çərçivəsində Rusiya Federasiyasının Azərbaycan Respublikasında Mədəniyyət Günlərinin açılış mərasimində iştirak etmək mənim üçün xüsusi şərəfdir və buna görə məmnunam.

Əziz dostlar, xalqlarımızı çoxillik dostluq əlaqələri, zəngin mədəni və tarixi irs birləşdirir. Gələn il biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyini birlikdə qeyd edəcəyik. Ortaq tarixin yenidən yazılması cəhdləri, nasizm üzərində qələbədə, Avropanın və dünyanın "qəhvəyi taun"dan xilas edilməsində bizim xalqlarımızın rolunun azaldılması cəhdlərinin qarşısının alınmasında səylərimizi birləşdirmək vacibdir. Burada, həmçinin çox ümid edirik ki, regionlararası səviyyədə də bu tarixi hadisəyə layiqincə diqqət yetiriləcək.

Əminəm ki, bizim forumda əldə olunan razılaşmalar Rusiya-Azərbaycan dostluğunun gələcəkdə də möhkəmlənməsinə xidmət edəcək, regionlararası əməkdaşlığın çərçivələrini və formatlarını genişləndirəcək, ölkələrimizin və xalqlarımızın mənafeyi naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək edəcək.

Mən forumun təşkilatçılarına, Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycanın nazirlik və idarələrinə təşəkkürümü bildirmək istəyirəm. Rusiya-Azərbaycan forumuna çox diqqətlə, çox qayğı ilə yanaşan və onun yüksək səviyyədə keçməsi üçün əlindən gələni əsirgəməyən İqtisadi İnkişaf naziri Maksim Stanislavoviç Oreşkinə ayrıca təşəkkür etmək istərdim. Azərbaycanın Ümummilli Lideri, dahi oğlu Heydər Əlirza oğlu Əliyev deyirdi ki, dünya quruculuq sayəsində yaşayır və inkişaf edir. Gəlin, onun bu müdrik kəlamına əməl edərək vətəndaşlarımızın həyatını birlikdə yaxşılaşdıraq. Çox sağ olun.

❖❖❖

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış etdi.

## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı






- Çox hörmətli Valentina İvanovna.

Hörmətli forum iştirakçıları.

X Azərbaycan-Rusiya Regionlararası Forumunun bütün iştirakçılarını ürəkdən salamlayıram.

Hörmətli Valentina İvanovna, Azərbaycan nümayəndə heyəti adından, ilk növbədə, sizə bu forumda iştirak etdiyinizə, həmçinin bizim ölkəmizə xeyirxah münasibətinizə görə təşəkkürümüzü bildirmək istəyirəm. Yubiley forumunun bütün təşkilatçılarına və iştirakçılarına səmimi qəbula görə təşəkkür edirəm.

Sizin ölkənizə rəsmi səfərə dəvət edilməyimə və mənə yüksək mükafatın - "Dostluq" ordeninin təqdim edilməsinə görə Rusiya Federasiyasının rəhbərliyinə, şəxsən Prezident Vladimir Vladimiroviç Putinə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu ordeni mənə şəxsən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin təqdim etməsi mənim üçün böyük şərəfdir. Mən bu mükafatı Rusiya ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan dostluq, mehriban qonşuluq münasibətlərinin daha bir rəmzi kimi qəbul edirəm.

Regionlararası əməkdaşlıq bizim ikitərəfli münasibətlərimizin mühüm tərkib hissəsidir. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə iqtisadi əlaqə saxlayır. Regionlararası forumların keçirilməsi yaxşı bir ənənəyə çevrilib və regionlararası əlaqələrin genişlənməsi işində mühüm rol oynayır. Keçən ilin sentyabrında Bakıda bundan əvvəlki forumun açılışında iki dövlətin başçılarının iştirakı regionlararası əməkdaşlığa ali səviyyədə əhəmiyyət verilməsinə dəlalət edir. Budəfəki forum çərçivəsində rəqəmsallaşma, kənd təsərrüfatı, turizm sahələrində, humanitar sahədə ikitərəfli qarşılıqlı fəaliyyətin perspektivləri ətraflı müzakirə edilib. Ümidvaram ki, əvvəlki illərdə olduğu kimi, bu forumun da nəticələri bizim ikitərəfli münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verəcək.

Hörmətli xanımlar və cənablar, Azərbaycan ilə Rusiyanı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət telləri bağlayır. Rusiya və Azərbaycan prezidentlərinin siyasi iradəsi, onların birgə səyləri sayəsində bu gün bizim əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri kəsb edib. Dövlət başçılarının sıx dostluq münasibətləri, qarşılıqlı səfərləri, müntəzəm görüşləri həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin inkişafına xüsusi dinamika verir. Sevindirici haldır ki, bu gün ölkələrimiz arasında çoxcəhətli tərəfdaşlıq praktiki olaraq bütün sahələri əhatə edir. Möhkəm ikitərəfli müqavilə-hüquqi baza yaradılıb, 200-dən çox sənəd imzalanıb. Hökumətlərarası və parlamentlərarası işçi qruplar münasibətin inkişafına sanballı töhfə verir.

Ticari əlaqələr bizim əməkdaşlığımızın əsas istiqamətlərindən biridir. Rusiya Azərbaycanın əsas tərəfdaşlarından biridir və bizim qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Artmaqda olan əmtəə dövriyyəsinin inkişafı və şaxələndirilməsi üzrə kompleks tədbirlər həyata keçirilib. Azərbaycan xaricdə özünün ilk ticarət nümayəndəliyini Rusiya Federasiyasında açıb. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları yaradılıb və uğurla fəaliyyət göstərir. Bizim istehsalçıların müxtəlif regionlara ixrac missiyaları təşkil edilir.

Hörmətli Valentina İvanovna, siz çox nikbin rəqəmlər səsləndirdiniz. Mən onları təkrar edəcəyəm, lakin zənnimcə, həmin rəqəmlər o qədər pozitivdir ki, onları bir daha təkrarlamağa dəyər. Ticarətdə müsbət dinamika müşahidə edilir. Məsələn, 2018-ci ildə ticarət dövriyyəsi 19 faiz artaraq 2,6 milyard ABŞ dollarına bərabər olub, cari ilin 9 ayı ərzində isə artım 26 faizə çatıb. İnvestisiya sahəsində də əməkdaşlığımız genişlənir. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın müəssisə qeydə alınıb. Azərbaycanda Rusiya investisiyalarının həcmi 4,9 milyard ABŞ dollarına çatıb. Eyni zamanda, Azərbaycan Rusiyaya 1,2 milyard dollar sərmayə yatırıb. Hazırda maşınqayırma və avadanlıq istehsalı, kimya sənayesi, əczaçılıq, nəqliyyat kimi sahələrdə müştərək layihələr həyata keçirilir. Məsələn, "SOCAR Polymer" zavodu inşa edilib, "Azərikimya" müəssisələri modernləşdirilir, Gəncə avtomobil zavodunda "KamAz" Səhmdar Cəmiyyətinin və "Ural" avtomobil zavodunun yük avtomobillərinin istehsalı və yığılması həyata keçirilir. Hacıqabul Sənaye Məhəlləsində "QAZ" markalı avtomobillərin yığılması üzrə zavod tikilir. "P-farm" əczaçılıq preparatları zavodunun birinci növbəsinin tikintisi başa çatmaq üzrədir. Rusiya şirkətləri Azərbaycanın neft-qaz sektorunda iştirak edir. Elektrik enerjisi mübadiləsi həyata keçirilir. Azərbaycan, Rusiya və İran arasında "Şimal-Cənub" enerji dəhlizinin yaradılması üzrə iş aparılır.

Rusiya Federasiyası ölkəmizdən ixrac edilən kənd təsərrüfatı məhsullarının əsas istehlakçısıdır. Biz də öz növbəmizdə, Rusiyadan kənd təsərrüfatı texnikası və mineral gübrələr alırıq. Yaxın gələcəkdə 2020-2022-ci illər üçün aqrar sənaye kompleksində əməkdaşlıq proqramının imzalanması planlaşdırılır.

Nəqliyyat-tranzit sahəsi bizim əməkdaşlığımızın mühüm istiqamətlərindən biridir. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi bu sahədə mühüm layihədir. Həmin layihənin həyata keçirilməsi nəticəsində ötən il bu marşrut üzrə tranzit daşımalarının həcmi 8 dəfə, bu ilin birinci yarısında isə 60 faizdən çox artıb. 2020-ci ildə yeni Bakı-Rusiya Federasiyası sərhədi avtomagistralının tikintisinin başa çatdırılması, habelə Samur çayı üzərindən avtomobil körpüsünün birgə tikintisi planlaşdırılır. "Şimal-Qərb" beynəlxalq nəqliyyat dəhlizi də uğurla fəaliyyətə başlayıb.

Turizm sahəsində əməkdaşlığımız dinamik şəkildə inkişaf edir. 2018-ci ildə Azərbaycana səfər etmiş rusiyalıların sayı 900 minə yaxın olub. Bizim ölkəyə gələn turistlərin sayına görə Rusiya birinci yeri tutur. Azərbaycan da öz növbəsində, Rusiyanın Şimali Qafqaz regionunun turizm infrastrukturu üçün əsas investorlardan biridir.

Son illərdə bizim humanitar əməkdaşlığımız əhəmiyyətli dərəcədə fəallaşıb. Təhsil sahəsində əməkdaşlığı xüsusi vurğulamaq istəyirəm. Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə icrasına başlanıb. Ölkəmizin 338 məktəbində tədris rus dilində aparılır, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi üzrə pilot layihəsi həyata keçirilir, Azərbaycanın 14 dövlət ali məktəbində rus bölmələri var. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır.

Əziz dostlar, ölkələrimiz arasında əməkdaşlıq çoxtərəflidir. Eyni zamanda, bu əməkdaşlığın daha da genişləndirilməsi üçün potensial imkanlar var. Əminik ki, bizim birgə səylərimizlə yeni qarşılıqlı faydalı layihələr reallaşacaq. Bu, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin və strateji tərəfdaşlığın ruhuna uyğundur.

Forum iştirakçılarına səmərəli iş arzulayır, ölkələrimizin və xalqlarımızın rifahı naminə Azərbaycan-Rusiya münasibətlərinin bundan sonra da durmadan inkişaf etməsini diləyirəm.

Sonda Rusiya Federasiyasının rəhbərliyinə, şəxsən Prezident Vladimir Vladimiroviç Putinə, Rusiya hökumətinin başçısı Dmitri Anatolyeviç Medvedevə, hörmətli Valentina İvanovna, sizə, bir daha təşəkkür etmək istəyirəm. Bu gün mənim Rusiya Federasiyasına rəsmi səfərimin üçüncü günüdür. Üç gün ərzində hiss etdiyim səmimi dostluq ab-havasına, keçirilmiş çox faydalı, məhsuldar görüşlərə görə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, bizim münasibətlərimiz gələcəkdə də Rusiya Federasiyasının və Azərbaycan Respublikasının prezidentlərinin siyasi iradəsi, sizin düzgün olaraq qeyd etdiyiniz kimi, onların arasında etimada əsaslanan dostluq münasibətləri sayəsində durmadan inkişaf edəcək. Moskvada olmağıma çox şadam. Moskva gözəl şəhərdir. Məni onunla tələbəlik illərim bağlayır. O mənə yaxın, doğma şəhərdir. Moskvaya gələndə həmişə sevinirəm və hər dəfə bu şəhərin necə gözəlləşdiyini görürəm.

Sizə, bütün dostlarımıza bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edib sizi Azərbaycana dəvət etmək istəyirəm. Çox sağ olun. Forumun işinə uğurlar arzulayıram. Sağ olun.

❖❖❖

Daha sonra imzalanmış ikitərəfli sənədlərin mübadiləsi mərasimi oldu.

İki gün ərzində keçirilən yubiley forumu Azərbaycanın və Rusiyanın regionları arasında işgüzar münasibətlərin inkişafına yönəlib və dövlət-özəl sektor dialoqu üçün nadir platformadır.

Təşkilatçıları Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi olan forum işini plenar iclasla davam etdirib.

# Rusiya-Azərbaycan regionlararası forumu başa çatıb

Moskvada keçirilən X Rusiya-Azərbaycan Regionlararası Forumu noyabrın 23-də işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin təşkil etdikləri forumun plenar iclası Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Kosmos və aviasiya" pavilyonunda keçirilib. İclasın işinə iki ölkənin rəsmi şəxsləri, biznes dairələrinin nümayəndələri qatılıblar.





Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun və Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkinin həmsədrliyi ilə keçən iclasda Həştərxan vilayətinin qubernatoru İ.Babuşkin, Rostov vilayətinin qubernatoru V.Qolubev, Azərbaycanın Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı N.Bayramov və Şəki Şəhər İcra Hakimiyyətinin başçısı E.Usubov çıxış ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov jurnalistlərə bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenkonun iştirakı forumun əhəmiyyətindən xəbər verir. Forum çərçivəsində bir sıra mühüm sazişlər, niyyət memorandumları imzalanıb, "dəyirmi masa"larda müzakirələr aparılıb, yeni əməkdaşlıq istiqamətləri müəyyən edilib. Azərbaycan ilə Rusiya arasında əmtəə dövriyyəsinin artım sürəti yüksəkdir. Cari ildə də belə davam edir. Biz zəmin yaradırıq ki, 2020-ci ildə bu vektoru qoruyub saxlayaq. Bu mənada forumun nəticələrini uğurlu hesab etmək olar. Nazir qeyd edib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya səfəri çərçivəsində əməkdaşlığa dair daha bir yol xəritəsi - innovasiyalar və elmi texnologiyalar sahəsində əməkdaşlığın əsası qoyulub.

Rusiyanın İqtisadi İnkişaf naziri Maksim Oreşkin forum çərçivəsində aparılan müzakirələrin nəticələrinin dekabrda Bakıda keçiriləcək Azərbaycan və Rusiya hökumətlərarası komissiyasının iclasında diqqət mərkəzində olacağını qeyd edib. O, həmçinin iki ölkə arasında elmi-texniki sahədə əməkdaşlığın genişləndiriləcəyini diqqətə çatdırıb. Nazir vurğulayıb ki, Rusiyada "Skolkovo" İnnovasiya mərkəzi fəaliyyət göstərir, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Moskva hökuməti ilə birlikdə "Elmi-texniki vadi" layihəsini həyata keçirirlər. İki ölkənin elm adamları arasında əməkdaşlığı genişləndirmək üçün Rusiyada artıq mövcud olan layihələrin təcrübəsindən Azərbaycanda istifadə olunması istiqamətində də müzakirələr aparılır.

Forumun yekununda Azərbaycan ilə Rusiya arasında iqtisadi sahədə əməkdaşlığa dair yeddi sənəd imzalanıb.

# İqtisadiyyat naziri Mikayıl Cabbarov Moskvada ikitərəfli görüşlər keçirib

Rusiyaya işgüzar səfəri çərçivəsində Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Moskvada bu ölkənin İqtisadi İnkişaf naziri Maksim Oreşkinlə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, iqtisadi potensialın reallaşdırılması istiqamətində aparılan işlər müzakirə edilib, hər iki dövlətin qarşılıqlı investisiyalarda maraqlı olduğu vurğulanıb. Söhbət zamanı Rusiya işgüzar dairələrinin Azərbaycanda fəal biznes fəaliyyəti həyata keçirdiyi, son illərdə Azərbaycan sərmayədarlarının da Rusiyada regional iqtisadiyyata investisiyalar qoyduğu diqqətə çatdırılıb.

Tərəflər ölkələrimizin işgüzar dairələri arasında əlaqələrin intensivləşdirilməsi, özəl sektorun iqtisadi münasibətlərdə fəallığının artırılması ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparıblar. Gələn ay Bakıda Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının növbəti iclasının keçirilməsi və bir sıra yeni sənədlərin, o cümlədən iki ölkə arasında 2019-2021-ci illər üzrə turizm sahəsində, eləcə də aqrar sənaye kompleksində əməkdaşlığa dair proqramların imzalanması imkanları müzakirə edilib.

Görüşdə Rusiya dövlət sərhədindən "Yaraq-Qazmalar" buraxılış məntəqəsi ərazisindən Samur çayı üzərində tikilən avtomobil körpüsünün dekabrda istifadəyə verilməsi ilə bağlı məsələlər də müzakirə olunub.

# *Vladimir VASİLYEV:* "Rusiya və Azərbaycan arasında mehriban qonşuluq əlaqələri yaranıb"

Rusiya və Azərbaycan arasında mehriban qonşuluq, hətta deyərdim ki, doğmalıq əlaqələri yaranıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Moskvada keçirilən Rusiya-Azərbaycan Regionlararası Forumunda iştirak edən Dağıstanın başçısı Vladimir Vasilyev söyləyib.

O qeyd edib ki, Dağıstan və Azərbaycan iqtisadi sahədə sıx əməkdaşlıq edəcəklər. Dağıstanın başçısı əlavə edib: "Biz resursları birləşdirmək üçün həm sizdə, həm də özümüzdə olan üstünlüklərdən istifadə edəcəyik. Biz rəqib yox, tərəfdaş olmaq istəyirik. Xüsusən, indi bizim kənd təsərrüfatı və ət məhsullarını yüksək gəlirlə realizə etmək barədə danışırıq. Azərbaycan kəndlilər, kənd təsərrüfatı istehsalçıları üçün çox yaxşı şərait yaradıb, vergiləri azaldıb, bizdə bu məsələlər hələ həllini tapmayıb. Danışıqlar aparacağıq, öyrənəcəyik. İndi respublikalar arasında nəqliyyat məsələləri yoluna qoyulur ki, zənnimcə, bu da münasibətlərin inkişafına kömək edəcək. Hökumətlərimiz artıq bu məsələni həll ediblər".

V.Vasilyev vurğulayıb ki, humanitar əlaqələr də yaxşı qurulub. "Azərbaycanlı turistlər tez-tez Dərbəndin qonağı olurlar, dağıstanlılar isə mütəmadi olaraq Bakıdadır. Növbəti ildə Bakı-Dərbənd-Mahaçqala və əks istiqamətdə sürət qatarı istismara buraxılacaq", - deyə o əlavə edib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu.

Möhtərəm cənab Prezident!

Şəxsən öz adımdan və bu il noyabrın 14-15-də Dünya dini liderlərinin II Bakı Sammitində iştirak edən Misir nümayəndə heyəti adından iki qədim mədəniyyəti - Şərq və Qərb mədəniyyətlərini təmsil edən, tolerantlıq, sülh içərisində birgəyaşayış nümunəsi olan qardaş və doğma ölkənizdə bizi mehriban qarşılayıb qonaqpərvərlik göstərdiyinizə və səmimi görüşə görə zati-alinizə dərin təşəkkürümü və minnətdarlığımı çatdırıram.

Fürsətdən istifadə edib zati-alinizə cansağlığı və doğma Azərbaycana getdikcə artan tərəqqi və rifah arzulayıram.

Yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Əl-Seyyid Əl-ŞƏRİF,***
***Misir Ərəb Respublikası***
***Deputatlar Məclisinin birinci***
***vitse-spikeri, Şəriflər Cəmiyyətinin rəhbəri***

---

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu.

Möhtərəm Prezident!

Mən və məni müşayiət edən nümayəndə heyəti Dünya dini liderlərinin II Bakı Sammitində iştirak etməyimizdən məmnunuq. İcazə verin, bu gözəl sammitə hamilik etdiyinizə, açılış mərasimində iştirak və çıxış etdiyinizə görə zati-alinizə təşəkkürümü, rəğbətimi və ehtiramımı ifadə edim.

Bu sammit Azərbaycanda keçirilən ən mühüm tədbirlər sırasındadır. Din xadimlərinə göstərdiyiniz qayğı və diqqətə, Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə bəxş etdiyiniz yüksək sevincə görə təşəkkür və minnətdarlığa layiqsiniz.

Yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Əl-Seyyid Əli bin Əl-Seyyid***
***Əbdurrəhman Al HAŞİM,***
***Birləşmiş Ərəb Əmirlikləri***
***Prezidentinin Məhkəmə və***
***Dini məsələlər üzrə müşaviri,***
***Əl-Əzhər Əl-Şərif İslam***
***Araşdırmaları Mərkəzinin üzvü***

---

Zati-aliləri cənab Prezident.

Fürsətdən istifadə edərək, məni Dünya dini liderlərinin II Bakı Sammitinə dəvət etdiyiniz üçün təşəkkürümü bildirmək istəyirəm.

Nəzakətiniz, qonaqpərvərliyiniz və bizi səmimiyyətlə qarşıladığınıza görə Sizə, Şeyxülislam Allahşükür Paşazadəyə və Azərbaycan xalqına öz adımdan, ABŞ Yəhudi liderləri və ABŞ-ın bütün Yəhudi Sefardi cəmiyyəti adından minnətdarlığımızı bildirirəm.

Ulu Tanrıdan Sizə ölkənizi idarə etmək üçün uğurlar, cansağlığı və uzun ömür arzulayıram.

*Dərin hörmətlə,*

***Rabbi Eli ABADİ,***
***ABŞ-ın Yeşiva Universiteti Sefardi***
***Araşdırmaları İnstitutunun direktoru***

---

Zati-aliləri.

Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin yüksək səviyyədə təşkil olunması münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Dünya liderləri və nümayəndələri tədbir zamanı aparılan müzakirələr və qəbul olunmuş bəyannamə ilə ekstremizm, ksenofobiya və diskriminasiyaya qarşı mübarizədə qlobal dialoqun və ümumbəşəri həmrəyliyin əhəmiyyətini bir daha vurğuladılar.

Bu sammit, həmçinin iki əlamətdar hadisə - Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, Şeyxülislamlıq fəaliyyətinin 40 illik yubiley tədbirlərinin keçirilməsi ilə eyni vaxta təsadüf etdi. Allahşükür Paşazadə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin İdarə Heyətinin çox hörmətli üzvüdür.

Təəssüflər olsun ki, din və müxtəlifliklə bağlı hadisələr bəzən icmalar arasında ümidsizliyə və dağıdıcı mənbələrə çevrilir. Halbuki həm din, həm də müxtəliflik ümumi cəmiyyətimizdə bizi birləşdirən həqiqət və fakt kimi qəbul olunmalıdır.

Məhz bu cür tədbirlər dinlərarası və sivilizasiyalararası dialoqun mədəniyyətlər arasında körpü rolunu oynaması və müasir dövrün problemlərinin həll olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Dialoq istər dini, istər mədəniyyət kontekstində Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin mandatının əsasını təşkil edir və təşkilatın məqsədi dünya dini liderləri və siyasətçilərini bir araya gətirərək dünyamızı narahat edən problemlərin həllində ortaq məxrəcin tapılmasıdır.

Mən, həmçinin fürsətdən istifadə edib, Sizinlə görüşümüz zamanı həlli vacib olan ortaq problemlərlə bağlı apardığımız məzmunlu müzakirələrə görə Sizə minnətdarlığımı bildirirəm. Bir daha qeyd etmək istəyirəm ki, dialoqun gücü həm bu gün, həm də gələcəkdə sülhə və tərəqqiyə, insan ləyaqətinə hörmət olunmasına aparan yeganə yoldur.

Sizə bir daha ən yüksək ehtiramımı bildirmək istəyirəm.

***Feysəl bin MUAMMAR,***
***Beynəlxalq Dinlərarası və***
***Mədəniyyətlərarası Dialoq Mərkəzinin***
***(KAICIID) Baş katibi***

---

Möhtərəm Prezident!

Sizə və ailə üzvlərinizə Allahdan nemət və bərəkət arzulayırıq.

Sizi 10 il əvvəl tanıdım və çox dahi bir şəxslə görüşdüyümün şahidi oldum, təkcə böyük, mühüm işlər görməyinizlə deyil, eləcə də dahi və görkəmli, yüksək ali məqama malik olan şəxsiyyət kimi tanıdım. Siyasət sahəsində bir çox şəxslər bu işin öhdəsindən gəlməkdə çətinlik çəkiblər və bu, mənim gözlərim qarşısında baş verib.

Azsaylı bir xalqın nümayəndəsinə xüsusi münasibətlə yanaşmağınız, istəklərimizi yerinə yetirməyə səy göstərməyiniz, ehtiyac duyduqlarımızı ləyaqət və sadəliklə qarşılamağınız və təvazökarlıqla əlinizdən gələni etməyiniz böyük işlərdir.

Noyabrın 14-15-də təşkil etdiyiniz sammit dinlər və xalqlar arasında sülh yaradılmasına xidmət edir. Bu işi böyük hörmət və ehtiramla həyata keçirdiniz. Çox kiçik bir məqamı nəzərinizə çatdırım ki, saatlarla əyləşdiniz və bütün iştirakçıların çıxışlarını səbirlə dinlədiniz. Bu, Sizin böyüklüyünüzün daha bir nümunəsidir. Bütün qonaqları nahara dəvət etdiniz və yəhudi nümayəndəliyini də diqqətdən kənarda qoymadınız. Belə ki, müqəddəs Tövrat və dinimizin adətlərinə uyğun olaraq halal nemətlər ilə qidalanmağımızı təmin etdiniz. Öz xanımınızla ziyafətdə iştirak etdiniz. Eləcə də mühafizə işçilərinin yüksək diqqətəlayiq alicənablığını və davranışını da xüsusilə qeyd etmək lazımdır. Bu xüsusi diqqət və qayğıya görə hər bir şəxsə Allahdan bərəkət diləyirəm.

Səhəri gün, noyabrın 15-də 3 nəfər nümayəndə üzvü ilə birlikdə Prezidentin qəbuluna dəvət olunduq. Mənə heç vaxt unutmayacağım təəssüratlar bəxş etdiniz. Sizin nəzakətli davranışınızdan, sadəliyinizdən və söhbətinizdən dərin biliyə malik və təvazökar insan olduğunuzu gördük. Xalqımızın firavanlığı üçün dua etdik. Bir daha zati-alinizin necə böyük və dahi bir şəxs olduğunu gördük. Bakının möhtəşəm küçələri, Prezidentin sadəliyi bizdə heç vaxt unuda bilməyəcəyimiz təəssüratlar yaratdı. Elə bu güclü və dərin iz qoyan təəssüratlarla da ölkəmizə qayıtdıq.

Cənab Prezident!

İcazə verin, Sizə, xanımınıza, ailə üzvlərinizə və Sizin kimi ali məqamlı Prezidentə layiq olan xalqınıza öz dualarımı çatdırım.

Əlavə etmək istərdim ki, Azərbaycan antisemitizmin hökm sürmədiyi yeganə ölkədir. Allah bunun müqabilində sizə nemət və bərəkət bəxş edəcək. Həmişə başqalarına da bu cür nümunə olmaqda davam edin.

*Dərin hörmətlə,*

***Şlomo AMAR,***
***Qüds Sefardi ortodoks baş ravvini***

---

Möhtərəm Prezident!

Gözəl Bakı şəhərində, vəfalı xalqınızın qonaqpərvərliyi şəraitində keçən və Sizin də açılışını etdiyiniz Dünya dini liderlərinin II Bakı Sammitində iştirak edən Livan müsəlman və xristian nümayəndə heyəti adından Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin rəhbərliyi ilə bütün millətlərin din və mədəniyyət nümayəndələri arasında Azərbaycanın tanışlıq, dialoq və anlaşma körpüsü qurmasına görə Zati-alinizə təşəkkür və rəğbətimizi bildirməkdən şərəf duyuram.

Cənab Prezident, icazə verin, xüsusilə İslam cəmiyyətlərinin və ümumilikdə bütün bəşəriyyətin ehtiyac duyduğu bu müsbət və konstruktiv rolun əhəmiyyətinə görə Sizə yüksək ehtiramımızı ifadə edim. Bu, münaqişə və iğtişaşların hökm sürdüyü, başqalarına qarşı ekstremizm, zülm və zorakılıq hallarının yayıldığı  dünyada ən çətin və nəcib roldur.

İştirak etməkdə şərəf duyduğumuz sammit boyunca bu hallarla mübarizədə Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin müdrikliyi və uzaqgörənliyi, hamının yanında qazandığı hörmət ilə tutduğu yolun əhəmiyyətini və zəruriliyini dərk etdik.

Zati-aliləri, mən və bütün yoldaşlarım Şeyxülislamın hamımıza böyük hörmət bəslədiyini hiss etdik. Biz onunla mədəniyyətin, məhəbbətin yayılmasında, Allahın da bizdə görmək və qiyamət gününə kimi qalmasını istədiyi müxtəlifliyə ehtiram bəsləmək istiqamətində birgə iş görürük.

Həmçinin hiss etdik ki, bu, nəcib əxlaqi dəyərlərə riayət etməyə, dəyərləriniz və gözəl idarəetmə missiyanızla müəyyənləşən bu ali bəşəri missiyaya olan bir hörmətdir.

Zati-aliləri, insanlar arasında məhəbbət, ehtiram və sülh bayrağını qaldırmağa təşviq edən konstruktiv rolunuza görə təşəkkürümü və yüksək ehtiramımı qəbul etməyinizi rica edirəm.

***Dr.Məhəmməd Əs-SƏMMAK,***
***Livan İslam Sammitinin baş katibi,***
***İslam-Xristian Milli Komitəsinin baş katibi,***
***Nyu York "Sülh uğrunda din" təşkilatının***
***rəyasət heyətinin üzvü, KAICIID-in idarə***
***heyətinin üzvü, Amman Al Əl-Beyt***
***təşkilatının idarə heyətinin üzvü,***
***Əbu-Dabi İslam Cəmiyyətlərində Sülhün***
***Möhkəmləndirilməsi Forumunun katiblər***
***heyətinin üzvü***

# Mehriban dostluq, strateji tərəfdaşlıq daha da möhkəmlənir

## Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiya Federasiyasına səfəri ikitərəfli əlaqələrin inkişafına güclü impuls verdi

*Əvvəli 1-ci səh.*

Bu səfərlər zamanı ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilir, əsas beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparılır və sosial-iqtisadi, humanitar əlaqələrin daha da şaxələndirilməsi istiqamətində forumlar keçirilir, sazişlər imzalanır.

Elə noyabrın 21-22-də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri də bu məqsədlərə xidmət edirdi. Azərbaycan-Rusiya əlaqələrinin kompleks inkişafı baxımından xüsusi əhəmiyyət daşıyan bu səfər iki ölkə arasında siyasi və iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsində mühüm önəm kəsb edir. Keçirilən yüksəksəviyyəli ikitərəfli görüşlər bunun əyani təzahürü oldu.

Noyabrın 21-də Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedyevlə, noyabrın 22-də isə Prezident Vladimir Putinlə keçirilən görüşlərdə iki ölkə arasında hərtərəfli əlaqələrin getdikcə daha da şaxələndiyi vurğulandı.

Rusiyanın dövlət başçısının Novo-Oqaryovadakı iqamətgahında keçirilən görüşdə Vladimir Putin avqustun 13-də imzaladığı fərmana əsasən "Dostluq" ordeni ilə təltif etdiyi Azərbaycanın Birinci vitse-prezidentinə dövlət mükafatını təqdim etdi. Bu, əlbəttə ki, dünyada ən işgüzar birinci xanım kimi tanınan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə verilən növbəti böyük qiymətdir. Azərbaycanın yüksək dəyərlərini, humanizm prinsiplərini beynəlxalq aləmə təqdimində əvəzsiz rol oynayan Mehriban Əliyeva genişmiqyaslı fəaliyyəti ilə dövlətlərarası dostluq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfələr verir.

Azərbaycan və Rusiya münasibətləri hazırda strateji tərəfdaşlıq səviyyəsindədir və məhz bu zəmində daha da inkişaf edir. İki ölkənin liderləri - cənab İlham Əliyevlə Vladimir Putin arasındakı qarşılıqlı hörmət və səmimiyyətə əsaslanan şəxsi münasibətlər isə əlaqələrin inkişafında böyük rol oynayır. Mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq əsasında qurulan münasibətlər yeni inkişaf mərhələsindədir.

Elə Vladimir Putin də mükafatı təqdim edərkən vurğuladı ki, bu orden Mehriban xanımın Azərbaycanda ali vəzifəli şəxslərdən biri olduğuna görə yox, onun fəaliyyətinə, dövlətlərarası əlaqələrin bugünkü yüksək səviyyədə saxlanmasına töhfəsi ilə bağlıdır: "Biz bunu çox yüksək qiymətləndiririk. Ordenin adı Sizin Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafı üçün gördüyünüz işləri əks etdirir. Onun adı belə də səslənir: "Dostluq" ordeni. Sizin işinizə görə və bu dostluğa görə çox sağ olun".

Azərbaycanın Birinci vitse-prezidenti isə Rusiya Federasiyasının Prezidentindən bu cür qiymət eşitməyi böyük şərəf kimi dəyərləndirdi: "Bu, mənim Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətimə verilən yüksək qiymətdir".

Onu da vurğulamalıyıq ki, Mehriban xanım Əliyeva Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinə və xalqlar arasında dostluğun möhkəmlənməsinə verdiyi töhfələrə görə bundan öncə də ali mükafatlarla təltif edilib. 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülən Mehriban xanım Əliyeva həmçinin Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsində çoxsaylı xidmətlərinə görə Moskvanın və bütün Rusiyanın patriarxı Kirill tərəfindən "II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa" ordeni ilə təltif edilib. 2013-cü ildə Mehriban Əliyevanın himayədarlığı ilə Həştərxanda Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılıb.

Göründüyü kimi, Mehriban xanım Əliyeva da strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi işinə böyük töhfə verir.

Rusiya Prezidenti ilə görüşdə Mehriban xanım bir daha hər iki dövlət başçısı arasındakı dostluq əlaqələrinə nəzər yetirərək cənab İlham Əliyevin hər zaman Rusiya ilə münasibətləri çox yüksək qiymətləndirdiyini diqqətə çatdırdı. Onun fikrincə, cənab Vladimir Putinlə Prezident İlham Əliyev arasında müntəzəm görüşlər ikitərəfli əlaqələrin çoxvektorluğunu və dinamizmini müəyyən edir.

Görüşdə həmçinin vurğulandı ki, Rusiya Federasiyası ilə münasibətlər Azərbaycanın xarici siyasətində çox mühüm yer tutur. Bütün istiqamətlər üzrə müsbət dinamika müşahidə edilir. Dövlətlər səviyyəsində müntəzəm siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir.

Humanitar sahədə münasibətlərə xüsusi olaraq toxunan Mehriban xanım Əliyeva hesab edir ki, bu münasibətlər nümunəvidir. Çünki bu gün Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox böyük hörmət bəsləyirlər. Paytaxt Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Moskva Dövlət Birinci Tibb Universitetinin filialları çox uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə həyata keçirilməsinə başlanıb. Azərbaycanda 338 məktəbdə tədris rus dilində aparılır, 14 dövlət ali məktəbində rusdilli bölmə fəaliyyət göstərir. Rusiyada 11 min azərbaycanlı tələbə təhsil alır və əlbəttə ki, Azərbaycanın çoxminlik rus icması ölkəmizin ümumi inkişafına öz layiqli töhfəsini verir.

Azərbaycan Prezidenti ilə böyük etimada əsaslanan mehriban münasibətlərinin formalaşdığını söyləyən cənab Vladimir Putin isə humanitar əlaqələrin inkişafını çox yüksək qiymətləndirdi: "Həqiqətən bu, keçmiş Sovet İttifaqı ölkələrindən, keçmiş Sovet İttifaqı respublikalarından biridir ki, orada, - biz bunu hiss edirik, - rus mədəniyyətinə, rus dilinə münasibət ən yüksək səviyyədə saxlanılır. Bilirəm ki, Siz şəxsən bu işdə daim fəal iştirak edirsiniz. Prezident də bunu dəstəkləyir. Biz bunu çox yüksək qiymətləndiririk. Ona görə ki, bu baza bizim bütün başqa istiqamətlərdə münasibətləri, o cümlədən iqtisadi və humanitar əlaqələri sözün geniş mənasında inkişaf etdirməyə imkan verir. Buna görə biz Sizə çox təşəkkür edirik və öz tərəfimizdən bu trendi dəstəkləmək üçün nə lazımdırsa edəcəyik".

Rusiya Prezidenti hesab edir ki, bu, iki ölkənin ümumi sərvətidir. Ona görə ki, bu, insanların öz aralarında hər hansı sədlər və maneələr olmadan ünsiyyət saxlamalarına, həm şəxsiyyətlərarası, həm də dövlət səviyyəsində münasibətləri inkişaf etdirməyə imkan verir.

Birinci vitse-prezident Mehriban Əliyeva isə gələcəkdə bu sahəyə daha çox diqqət yetirməyin vacibliyini vurğuladı.

Rusiya Hökumətinin sədri Dmitri Medvedyevlə keçirilən görüşdə isə iki ölkə arasındakı iqtisadi münasibətlər müzakirə mövzusu oldu. Mehriban xanım Əliyeva iki ölkə arasında iqtisadi əlaqələrin getdikcə daha da genişləndiyini bildirərək Rusiyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu, qeyri-neft məhsullarının idxalı üzrə birinci yer tutduğunu söylədi.

Qeyd edildi ki, iki ölkə arasında əmtəə dövriyyəsi artır. Ötən il 19 faiz artım olub və 2,6 milyard dolları təşkil edib. Bu ilin 9 ayında isə artım 24 faizə çatıb. Bundan başqa qarşılıqlı sərmayə qoyuluşu artır. Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan Rusiyaya 1,2 milyard dollar sərmayə qoyub. Mühüm olan odur ki, hökumətlərarası komissiyanın təhlilinə görə, bu potensialdan tam şəkildə istifadə edilməyib, daha 2-3 dəfə artım mümkündür. Rusiyadan Azərbaycana səyahət edən turistlərin sayı artır. Ötən il 900 min rusiyalı Azərbaycanda olub. Bu il də həmin göstəricinin artacağı gözlənilir.

Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin ən sadiq silahdaşı kimi dövlətin müstəqilliyinin əbədiliyinin və dönməzliyinin təmin olunmasında bütün səy və bacarığını ortaya qoyan  Mehriban xanım Əliyeva beynəlxalq əlaqələrin möhkəmlənməsinə müsbət töhfəsini verir. Azərbaycan həqiqətlərinin tanınması və qəbul edilməsi istiqamətində görülən işlər son dövrlər məhz Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti kimi məqsədyönlü fəaliyyəti nəticəsində daha geniş vüsət alıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Parlamentin komitələrinin birgə iclasında "Tibbi sığorta haqqında" qanuna təklif olunan dəyişikliklər müzakirə edilib

Noyabrın 23-də Milli Məclisin Səhiyyə və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, gündəliyə "Tibbi sığorta haqqında" qanuna dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələ daxildir. Komitə sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2020-ci il yanvarın 1-dən Azərbaycanda icbari tibbi sığortaya keçidlə bağlı sərəncam imzalamasından sonra ölkəmizdə bununla bağlı böyük işlər görülüb. Bu sərəncamdan irəli gələrək "Tibbi sığorta haqqında" qanunun 8 maddəsinə 126 dəyişiklik təklif olunur. Bu dəyişikliklər əsasən icbari tibbi sığorta ilə bağlıdır.

Qanun layihəsinə təklif olunan dəyişikliklər barədə geniş məlumat verən Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev bildirib ki, dəyişikliklər 3 qrupa bölünür. Bunlar anlayışlarla bağlı, stilistik və sığortaolunanlarla bağlı dəyişikliklərdir. Bildirilib ki, bu dəyişikliklər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına xidmət edir. Qanuna əlavə ediləcək 16-4-cü maddəyə əsasən icbari tibbi sığorta ölkənin inzibati ərazi vahidləri üzrə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən müəyyən edilmiş ardıcıllıq nəzərə alınmaqla, mərhələli şəkildə tətbiq olunacaq.

İclasda çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə, deputatlardan Vahid Əhmədov, İlham Məmmədov, Qənirə Paşayeva, Rəşad Mahmudov, Şəmsəddin Hacıyev, Məlahət İbrahimqızı, Tahir Mirkişili, İlham Əliyev, Kəmaləddin Qafarov qanun layihəsinin vətəndaşlar tərəfindən səbirsizliklə gözləndiyini diqqətə çatdırıblar, layihə barədə qeyd və təkliflərini bildiriblər.

İclasda çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev və Maliyyə nazirinin müavini Azər Bayramov deputatların suallarını cavablandırıblar.

Müzakirələrin sonunda "Tibbi sığorta haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Mərkəzi Seçki Komissiyası "Seçki günü üçün yaddaş" kitabçası hazırlayıb




Mərkəzi Seçki Komissiyası (MSK) qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar aşağı seçki komissiyalarının maarifləndirilməsi layihəsi çərçivəsində "Seçki günü üçün yaddaş" kitabçası hazırlayıb.

MSK-dan AZƏRTAC-a bildiriblər ki, layihə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü prosedurları ilə bağlı məlumatlarının artırılması və fəaliyyətlərinin daha da təkmilləşdirilməsi məqsədi daşıyır.

Nəşrdə MSK sədri Məzahir Pənahovun məntəqə seçki komissiyalarının üzvlərinə müraciəti yer alıb. Sədr müraciətində ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli yer tutan bələdiyyə seçkilərinin qanunvericiliyin tələblərinə uyğun keçirilməsində məntəqə seçki komissiyalarının üzərinə böyük məsuliyyət düşdüyünü xatırladır, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsinin təmin edilməsində onlara uğurlar arzulayır.

Kitabçada seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki məntəqəsinin açılması, səsvermə saatlarında tədbirlər, seçki məntəqəsinin bağlanması, səslərin hesablanması və səsvermənin nəticələrinə dair yekun protokolun doldurulması müfəssəl izah olunub.

Yaddaş kitabçası Seçki Məcəlləsinin müddəaları və MSK-nın qəbul etdiyi təlimat, izah və qaydalar əsasında hazırlanıb.

"Seçki günü üçün yaddaş" kitabçasını aşağı seçki komissiyalarından, eləcə də MSK-nın rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək mümkündür.

# Konstantin KOSAÇEV: "Azərbaycan postsovet məkanında hər bir dövlət üçün nümunə ola bilər"

Azərbaycan Rusiya ilə münasibətlərini maksimum dərəcədə inkişaf etdirmək niyyətindəki səmimiliyə şübhə etmək üçün heç vaxt heç bir əsas verməyib.



Bu fikri AZƏRTAC-ın müxbirinə X Rusiya-Azərbaycan Regionlararası Forumunda iştirak edən RF Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Konstantin Kosaçev ifadə edib.

Komitə sədrinin fikrincə, əsas göstəricilərdən biri Azərbaycanda rus dilinə, rusdilli əhaliyə və ortaq keçmişə münasibətdir. O əlavə edib: "Bu mənada Azərbaycan postsovet məkanında hər bir dövlət üçün nümunə ola bilər. Bu, bütün digər sahələrdə irəliləmək üçün zəruri olan mənəvi və əxlaqi əsaslar yaradır".

Rusiyalı senator qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi hər il onlarla faiz artır. "Sosial və humanitar sahələrdə əməkdaşlıq inkişaf edir. Gənclər və tələbə mübadiləsi həyata keçirilir, Azərbaycanda Rusiyanın ali məktəblərinin filialları açılır. Bütün bunlar ölkələrimiz və xalqlarımız üçün zəruri olan uzunmüddətli əməkdaşlığın əsasını yaradır. Biz doğru yoldayıq və bu əməkdaşlığa regionlararası meyarları da əlavə etməyimiz onu göstərir ki, maraqlar qarşılıqlı, dayanıqlı, ciddi və uzunmüddətlidir", - deyə K.Kosaçev sözlərinə yekun vurub.

# XİN Azərbaycan və Ermənistan jurnalistlərinin səfər mübadiləsinə dair açıqlama yayıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisinin təşkilati dəstəyi ilə Azərbaycan və Ermənistan tərəfindən bu il noyabrın 17-21-də iki ölkənin KİV nümayəndələrinin səfər mübadiləsi təşkil edilib. Səfər çərçivəsində jurnalistlərimiz Ermənistanda, eləcə də ölkəmizin Dağlıq Qarabağ bölgəsində, o cümlədən Şuşa şəhərində olublar.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Azərbaycan və Ermənistan jurnalistlərinin səfər mübadiləsi ilə bağlı KİV-in sualını cavablandırarkən deyib.

L.Abdullayeva bildirib ki, erməni jurnalistlər azərbaycanlı həmkarları, QHT nümayəndələri, akademik dairələr, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə görüşüblər. Erməni jurnalistlər Azərbaycanda olarkən müsəlman, xristian və yəhudi dini ziyarətgahlarına baş çəkiblər.

# Qazlaşdırmanın səviyyəsinə görə də lider ölkəyik

## Azərbaycanda mavi yanacaq istehlakçılarının sayı 2,3 milyona çatır



Yeniləşən, müasirləşən, təkmilləşdirilən infrastruktur ölkənin simasını başdan-başa dəyişib. Son illər "ucqar kənd", "ucqar bölgə" anlayışları şüurlardan demək olar ki, silinib. İndi kəndin də şəhər kimi işığı və qazı bol, yolu rahatdır.

Qaz xətləri Azərbaycanın ən uzaq ərazilərinə, hətta dağların qoynunda yerləşən kəndlərə çatıb. Sovet hakimiyyətinin ən inkişaflı illərində belə qazdan istifadə edə bilməyən yaşayış məntəqələrinin indi bu sarıdan problemi yoxdur.

Qazlaşdırılan kənd və qəsəbələrin sayı ildən-ilə çoxalır. Dünyada qazlaşdırmanın bu cür sürətlə və geniş miqyasda aparıldığı ölkələr çox azdır. Başqa sözlə, Azərbaycan bu sahədə də liderdir.

Bu il yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində Prezident İlham Əliyev demişdir: "Ölkədə qazlaşdırmanın səviyyəsi 95 faizdir. Ancaq, əlbəttə, bu, o demək deyil ki, bu, bizi qane edir. Elə kəndlər var ki, oraya hələ də qaz çəkilməyib. Ona görə bu proses davam etdiriləcək. Baxmayaraq ki, dünya miqyasında bu qədər qazlaşdırma aparan ölkələr o qədər də çox deyil. Yəni biz son illər ərzində qazlaşdırma ilə bağlı əsas problemləri həll etdik. Əsas məsələ indi bu prosesi davam etdirmək və qazın keyfiyyətini artırmaqdır. Bəzi hallarda fasilələr baş verir, bəzi hallarda qaz lazımi həcmdə gəlmir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır ki, burada heç bir çatışmazlıq olmasın".

Qarşıya qoyulan vəzifələr yerinə yetirilir. Hazırda ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizi ötür.

Bu il noyabr ayının 1-i vəziyyətinə ölkədə təbii qaz istehlakçılarının sayı 2 milyon 257 min 156-ya bərabər olub. Yanvar-oktyabr ayları ərzində əhali sektoru üzrə 74 min 229 yeni abonent qeydiyyata alınıb. Onların da 41 min 487-si Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun, 32 min 742-si regionların payına düşür. Təkcə oktyabr ayı ərzində əhali sektoru üzrə 9 min 105 yeni abonent qeydiyyata alınıb. Abonentlərin 5196-sı Bakı, Abşeron və Sumqayıtda, 3 min 909-u regionlarda yaşayanlardır.

İlin əvvəlindən qazlaşdırılan yaşayış məntəqələrinə gəldikdə isə onların sayı 66 olub.

"Azəriqaz" İstehsalat Birliyi istehlakçıların mavi yanacaqla təchizatının yaxşılaşdırılması, bölgələrin qazlaşdırılması, qaz kəmərlərinin və avadanlıqlarının yenidən qurulması istiqamətində ardıcıl iş aparır. Bir sözlə, qaz təsərrüfatı infrastrukturu getdikcə daha da genişləndirilir.

Tərtib edilmiş tədbirlər proqramına əsasən, ilk növbədə, kənd və qəsəbələrin daşıyıcı qaz kəmərlərinin yenidən qurulması, istismar müddəti bitmiş avadanlıqların yeniləri ilə əvəz edilməsi həyata keçirilir. Həmçinin mövcud qazpaylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidən qurulması, hər bir istehlakçının mənzilinə qaz sayğaclarının quraşdırılması tədbirləri də davam etdirilir.

Beləliklə, ölkə ərazisində bu ilin ilk 10 ayı ərzində 1559,8 kilometr uzunluğunda müxtəlif diametrli yeni qaz kəmərləri çəkilib. 542,8 kilometrlik qaz kəmərləri əsaslı təmir edilib. Bundan əlavə, Bakı, Sumqayıt şəhərlərində və regionlarda daxili imkanlar hesabına 299,64 kilometr uzunluğunda müxtəlif diametrli qaz xətləri təmir edilib, yaxud yenisi ilə əvəz olunub.

Dövlət proqramına əsasən, bu il 92 yaşayış məntəqəsi və massivində qazlaşdırılma aparılmalıdır. Qeyd edildiyi kimi, onlardan 66-da bu iş artıq başa çatdırılıb. Paytaxtda qazlaşdırılması nəzərdə tutulan 22 yaşayış məntəqəsindən biri artıq mavi yanacaqla təmin olunub. 11 məntəqədə işlər tamamlanıb, daha 10 massivdə isə bu istiqamətdə işlər davam etdirilir.

Əsas məsələlərdən biri də payız-qış mövsümü üçün nəzərdə tutulan tədbirlərin icrasıdır. Bunların 90 faizdən çoxu yerinə yetirilib və bu sahədə də işlər ardıcıllıqla davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Rusiya-Azərbaycan Regionlararası Forumunda kənd təsərrüfatında qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə edilib

Xəbər verildiyi kimi, Moskvada 10-cu Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilmişdir. Forum Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Roskonqress Fondu tərəfindən təşkil olunmuşdur.

Tədbir çərçivəsində həmçinin "Kənd təsərrüfatında qarşılıqlı fəaliyyətin perspektivləri" mövzusunda "dəyirmi masa" da təşkil edilmişdir. "Dəyirmi masa"ya Azərbaycan tərəfdən moderatorluq edən Kənd Təsərrüfatı nazirinin müşaviri Anar Hüseynov bildirmişdir ki, Azərbaycan-Rusiya əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır: "Azərbaycan və Rusiya dövlət başçılarının birgə səyi və iradəsi sayəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir" deyən Anar Hüseynov əlavə etmişdir ki, Rusiya bazarı Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün ənənəvi bazardır və bu ölkəyə ixracda kənd təsərrüfatı məhsulları xüsusi yer tutur: "Azərbaycanın meyvə-tərəvəz məhsulları Rusiyada çox sevilir. Bu baxımdan iki ölkə arasında aqrar ticarətin genişləndirilməsi, aqrar tədqiqatlar sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı birgə layihələrin həyata keçirilməsi məqsədəuyğundur".

"Dəyirmi masa"da Rusiya tərəfindən Stavropol Vilayətinin Kənd Təsərrüfatı naziri Vladimir Sitnikov, Smolensk Vilayəti Administrasiyasının rəhbərinin birinci müavini Murad Rasulov, Moskva Beynəlxalq Əlaqələr Dövlət İnstitutunun Beynəlxalq aqrar bazarlar və iqtisadi fəaliyyət kafedrasının müdiri Nataliya Çerner, Azərbaycan tərəfindən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC İdarə Heyətinin sədri Leyla Məmmədova, Dövlət Toxum Fondunun rəhbəri Emin Əliyev, "Aqrolizinq" ASC-nin şöbə müdiri Rasim İsmayılov, Aqrar Tədqiqatlar Mərkəzinin Tədqiqatlar Departamentinin müdir müavini Pərviz Əliyev və dgər şəxslər çıxış etmişlər.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan qurumların rəhbər şəxsləri tərəfindən ölkəmizdə aqrar sahədə həyata keçirilən islahatlar və layihələr barədə təqdimat nümayiş olunmuşdur. Görüş zamanı həmçinin Azərbaycan istehsalı olan kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına ixrac məsələləri müzakirə edilmiş, "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən hazırlanan və növbəti ildən etibarən qablaşdırılaraq ixracı nəzərdə tutulan yeni brend barədə məlumat verilmiş, kənd təsərrüfatı sahəsində iki ölkə arasındakı əlaqələrin inkişaf perspektivləri ilə bağlı ətraflı müzakirə aparılmışdır.

# "Emerging Europe" Azərbaycanda iqtisadi islahatlar modeli barədə məqalə dərc edib

Nüfuzlu "Emerging Europe" nəşri ölkəmizdə aparılan iqtisadi islahatlar barədə analitik məqalə dərc etmişdir. Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan iqtisadi islahatlar modelindən bəhs olunub.

Məqalədə həmçinin son dövrlər ölkənin iqtisadi göstəricilərinin davamlı yaxşılaşması, investisiya mühitinin inkişaf etdirilməsi üzrə aparılan kompleks islahatlar, qəbul edilmiş Strateji Yol Xəritələri, Dövlət-Biznes dialoqu platforması və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın və onun Azranking.az portalının yaradılması qeyd olunub. Müəllif Azərbaycanda aparılan iqtisadi islahatlar modelinin digər inkişaf etməkdə olan ölkələrdə də tətbiq edilə biləcəyini vurğulayıb. Məlumat üçün bildirək ki, məqalənin müəllifi Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin maliyyə analitiki Ayaz Museyibovdur.

# Ölkəyə gələn turistlərin sayında 11 faizə yaxın artım var

Dövlət Statistika Komitəsi Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən xəbər verir ki, cari ilin yanvar-oktyabr aylarında Azərbaycana dünyanın 192 ölkəsindən 2 milyon 682,4 min və ya 2018-ci ilin eyni dövrü ilə müqayisədə 10,8 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.



Foto A.MƏMMƏDOVUNDUR

Gələnlərin 29,8 faizi Rusiya Federasiyası, 22,1 faizi Gürcüstan, 9,8 faizi Türkiyə, 8,2 faizi İran, 3,7 faizi Səudiyyə Ərəbistanı, 2,0 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Hindistan və Ukrayna, hər birindən 1,7 faiz olmaqla İraq və Türkmənistan, 1,6 faizi İsrail, 1,5 faizi Qazaxıstan, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslərdir.

Ölkəmizə 10 ay ərzində gələnlərin sayında daha çox artım Türkmənistan (96,5 faiz), Hindistan (66,5 faiz), Çin (64,2 faiz), Misir (62,5 faiz), Səudiyyə Ərəbistanı (43,7 faiz), Malayziya (41,3 faiz), Filippin (36,6 faiz), Polşa (32,7 faiz), Macarıstan (31,4 faiz), İspaniya (28,9 faiz), Özbəkistan (26,1 faiz), Qazaxıstan (24,1 faiz), Böyük Britaniya (23,7 faiz), Almaniya (21,3 faiz), Gürcüstan (21,2 faiz) və Cənubi Koreya (20,3 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

Hesabat dövründə Avropa İttifaqına (Aİ) və MDB-yə üzv ölkələrdən gələnlərin sayında da artım müşahidə olunmuşdur. Belə ki, bu aylarda Aİ ölkələrndən Azərbaycana gələn qonaqların sayı 22,3 faiz artaraq 121,5 min, MDB ölkələrindən gələnlərin sayı isə 9,2 faiz artaraq 974,2 min nəfərə çatmışdır.

2019-cu ilin yanvar-oktyabr aylarında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı da artmışdır. Hesabata görə, yanvar-oktyabr aylarında xaricə gedən Azərbaycan vətəndaşlarının sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,9 faiz artaraq 4 milyon 653,9 min nəfər olmuşdur. Ölkə vətəndaşlarının 36,5 faizi İrana, 28,8 faizi Gürcüstana, 17,5 faizi Rusiya Federasiyasına, 11,6 faizi Türkiyəyə, 5,6 faizi isə digər ölkələrə getmişdir. İrana gedən Azərbaycan vətəndaşlarının sayı 31,5, Gürcüstana gedənlərin sayı 12,9, Rusiya Federasiyasına gedənlərin sayı 6,3, Türkiyəyə gedənlərin sayı isə 4,5 faiz artmışdır.

# Moskvadakı "Tvoy dom" hipermarketində "Azərbaycan nemətləri" guşəsi açılıb



Ölkəmizin Rusiyadakı Ticarət Nümayəndəliyinin dəstəyi ilə Moskvanın "Veqas" ticarət-əyləncə mərkəzindəki "Tvoy dom" hipermarketində geniş çeşiddə "Made in Azerbaijan" brendli məhsulların təqdim olunduğu "Azərbaycan nemətləri" guşəsi açılıb.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev belə bir guşənin yaradılmasının yerli məhsullarımızın Rusiya bazarında daha çox tanıdılması və ticarət əlaqələrinin genişləndirilməsində əhəmiyyətini vurğulayıb.

Xatırladaq ki, bu ilin martında Moskvada "DEPO" qastromarketində "Azərbaycan nemətləri" mağazası açılmışdır. Rusiyanın digər şəhərlərində də bu cür mağazaların açılması istiqamətində işlər aparılır.

# Özəlləşdirmədən daxilolmalar 110 faiz icra olunub

Dövlət əmlakının özəlləşdirilməsindəki yeniliklər, iştirak üçün rahat və müasir imkanlar bu sahəyə marağı yüksəldir. Özəlləşdirmənin sürətləndirilməsi və investisiyaların cəlb edilməsi ilə bağlı görülən işlər nəticəsində bu istiqamətdə büdcə daxilolmalarının məbləği artır.

Dövlət Əmlak Komitəsinin verdiyi məlumata görə, cari ilin 11 ayı ərzində dövlət əmlaklarının özəlləşdirilməsi üzrə daxilolmalar 110 faiz icra olunub. Belə ki, dövlət əmlaklarının özəlləşdirilməsi üzrə proqnoz 80 milyon manat nəzərdə tutulsa da, yanvar-noyabr ayları ərzində bu xətt üzrə dövlət büdcəsinə 87,6 milyon manat vəsait daxil olub.

Özəlləşdirmədə innovasiyaların tətbiqi, prosedurların daha da sadələşdirilməsi və elektron üsullarla təqdim olunması birbaşa səmərəliliyin və məmnunluğun artırılmasına istiqamətlənib.

Cari il ərzində investisiya müsabiqələri vasitəsilə özəlləşdirmə sahəsində 4 səhmdar cəmiyyətin səhmlərinin satışı üzrə investisiya müsabiqələri elan edilmiş və həmin dövlət əmlakları özəlləşdirilmişdir.

## Müasir dünya təcrübəsi

# Tibbi sığorta sağlam həyatın təminatına xidmət edir

Dünya əhalisinin ən azı yarısının səhiyyə xidmətlərinə əli çatmır. 100 milyona yaxın insan həddən artıq yoxsulluq içində yaşadığından səhiyyə xidmətlərindən dolğun faydalanmaq imkanlarından məhrumdur. Gündə cəmi 1,9 dolları dək pulla yaşamaq məcburiyyətində qalanların müalicə üçün pul ödəmələri təbii ki, ağlabatan deyil. Bundan başqa, 800 milyondan çox insan (dünya əhalisinin təqribən 12 faizi) ailə büdcəsinin ən azı 10 faizini səhiyyə xidmətlərinə xərcləyir. Bəli, bu cür statistikanın ağırlığı nikbin gələcəyə bəslənən ümidləri də bədbin məcraya yönəldir.

Bu səbəbdən BMT-yə üzv olan ölkələr belə razılığa gəliblər ki, 2030-cu ilədək bütün əhalini səhiyyə xidmətləri ilə əhatə etsinlər. Əsas məqsəd odur ki, insanların zəruri səhiyyə xidmətlərindən faydalanmalarına maliyyə çətinlikəri mane olmasın.

Ağır xəstəliklərin müalicəsi və bu zaman göstərilən xidmətlərin



keyfiyyətinin yaxşılaşdırılması günümüzün aktual problemlərindəndir. Tibbi sığortanın da başlıca vəzifəsi insanların sağlamlığının yaxşılaşmasına xidmət etməkdir. Müalicəyə ehtiyacı olanların öz vəsaitləri hesabına yox, başqa mənbələrdən təmin edilməsi imkan verir ki, ən ağır xəstəliklərdən müalicə alan yüz milyonlarla insan məcburən yoxsulluğun girdabına yuvarlanmasın. Gözlənilmədən ağır xəstəliyə yoluxanlar əllərindəki qəpik-quruşlarını itirməsin, borca düşməsin və ev-eşiklərini satmaq məcburiyyətində qalmasınlar.

Əlbəttə, səhiyyə xidmətlərinin ümumi əhatəsi heç də o demək deyil ki, bütün xəstəliklərin müalicə haqqını ödəməyi hər hansı bir sığorta qurumu öz üzərinə götürəcək. Bu, təbii ki, mümkün deyil. Odur ki, problemin həllinin incəliklərini anlamaq üçün müasir dünyada tibbi sığortanın inkişaf etmiş ölkələrdə necə fəaliyyət göstərməsinin nəzərdən keçirilməsi zəruridir. Bu baxımdan Almaniya, Böyük Britaniya, ABŞ, Fransa və Kanada kimi ölkələrin təcrübəsi diqqətəlayiqdir.

Sosial sığorta modelinin klassik nümunəsi kimi Almaniya maraqlıdır. Bu ölkədə maliyyə mənbələri aşağıdakı qaydada bölünür: tibbi sığorta 60, özəl tibbi sığorta 10, dövlət büdcəsi hesabına 15 və vətəndaşların şəxsi vəsaiti hesabına 15 faiz. Tibbi-sosial sığorta proqramları əhalinin 90 faizini, özəl-tibbi sığorta isə 10 faizini əhatə edir. Xəstəxana xəzinədarlığı (kassaları) xüsusi qeyri-kommersiya təşkilatları statusuna malikdir və xəstəliklərlə bağlı risklərin sığortalanması ilə məşğul olurlar. Onların, eləcə də həkimlərin, o cümlədən stomatoloqların təmsilçilərini özündə birləşdirən ödəniş komissiyaları federal səviyyədə güzəştlərin, normativlərin və göstərilən tibbi xidmətlərin qiymətlərinin təyin olunmasında iştirak edirlər.

Alman qanunvericiliyinə görə, yalnız illik gəliri 50 min avronu keçənlər özəl tibbi sığortadan faydalana bilərlər. Qalan vətəndaşlar məcburi sosial tibbi sığorta ilə əhatə olunurlar. Bu ölkədə tibbi xidmətlər bazarı elə yüksək inkişaf etmişdir ki, dövlət tibbi sığortası aparıcı, özəl sığorta isə tamamlayıcı rollarını oynayır.

Böyük Britaniyaya gəldikdə, bu ölkə büdcə modelinin ən parlaq nümunəsi hesab olunur. Böyük Britaniyada səhiyyə xərclərinin 95 faizi dövlət, 5 faiz özəl tibbi sığorta hesabına ödənilir. Vəsaitlər dövlət büdcəsində toplanır, oradan səhiyyə müəssisələrinin maliyyələşdirilməsini idarə edən özünütənzimləmə təşkilatlarına ötürülür. Bu hesaba bütün əhali pulsuz səhiyyə xidməti ilə əhatə olunur və tibbi xidmətlər üçün ödənişlər demək olar ki, yox dərəcəsindədir. Məsələn, bir resept üçün cəmi 7,85 funt-sterlinq həcmində sabit ödəmə tətbiq edilir.

Fransanın səhiyyə sistemində isə sosial-sığorta modelinə üstünlük verilir. Bu sistemin 50 faizi sosial tibbi sığortanın, 20 faizi fərdi tibbi sığortanın, 10 faizi dövlət büdcəsinin, 20 faizi də vətəndaşların şəxsi vəsaitləri hesabına ödənilir. Əhalinin 96 faizi sosial tibbi-sığorta ilə əhatə olunub. Fərdi sığorta isə səhiyyə xidmətləri bazarında əlavə rol oynayır.

Biz aparıcı ölkələrin sığorta sistemlərində son zamanlardakı yalnız ümumi cəhətləri sadaladıq. Göründüyü kimi, onlar bənzər olduqları qədər də fərqlidirlər. Yeri gəlmişkən onu da qeyd edək ki, Qərbdə səhiyyənin və tibbi sığortanın səviyyəsini, təsir gücünü təyin edən amillərdən biri də orta insan ömrünün uzunluğu ilə əlaqədardır. Eyni zamanda səhiyyə xərclərinin sırasında vətəndaşların maariflənməsinə və hüquqi təminatına ciddi vəsaitlər ayrılır. Yəni sağlam həyat tərzinin təbliği, insanların sağlamlığının qorunması istiqamətlərində sistemli layihələr həyata keçirilir və ailə sağlamlığını qoruyanlara müsbət nümunə kimi müəyyən güzəştlər tətbiq edilir. Məsələn, müxtəlif ölkələrdə siqaret çəkənlərin sayına nəzər salsanız görəcəksiniz ki, ən az tütün aludəçiləri inkişaf etmiş ölkələrdədir. Çünki həmin ölkələrdə antitütün təbliğatına külli məbləğdə vəsait xərclənir.

Reallıqlar belə qənaətə gəlməyə əsas verir ki, dünya səhiyyə sisteminin yeni məzmunu formalaşmaqdadır. Bu, təbii ki, tibbi sığortaya da təsir edəcək, baxmayaraq ki, dünyada böyük şirkətlər tibbi sığortada öz paylarını azaltmağa meyillidirlər. Bu yerdə qeyd edək ki, Azərbaycanda məcburi tibbi sığortanın gələn ilin əvvəlindən tətbiq olunması gözlənilir. Amma ölkədə özünə hörmət qoyan şirkətlər artıq neçə ildir ki, işçilərinə və hətta onların ailə üzvlərinə tibbi sığorta paketi təklif edirlər.

Bu gün planetar miqyasda müasir səhiyyənin qarşısında önə çıxan problemlərin sırasında maliyyə dayanıqlığı, xidmət modelləri kimi məsələlər durur. Onlar bilavasitə və dolayısı tibbi sığortanın inkişafına və təkmilləşməsinə təsir edir. Müasir səhiyyənin düşünən beyinləri sabit inkişaf edən ekosistemlərin, səhiyyə islahatlarının aparıcı qüvvələrinin sıx əməkdaşlığında maraqlıdır.

Bir qayda olaraq, bütün intibahların arxasınca tənəzzül baş verir. Lakin bu, 2019-cu ilin səhiyyəsinə aid deyil. Dünyada müasir səhiyyə sistemləri artıq xəstəliklərin müalicəsinə yox, onların vaxtında diaqnozlaşdırılıb aradan qaldırılmasına xidmət edir. Rəqəmsal texnologiyalar əsasında tətbiq edilən yeni modellər səhiyyənin mövcud qlobal problemlərini üzə çıxarır və daha ucuz, daha faydalı müalicə mexanizmlərinin yaradılmasını stimullaşdırır. Buna baxmayaraq, proqnozlara görə, 2022-ci ilədək dünyanın səhiyyə xərclərinin 7,7 trilyon dollardan 10,1 trilyon dolları dək artması gözlənilir. Fərdiləşmiş səhiyyənin, yeni texnologiyaların inkişafı və yayılması, innovasiyaların tətbiqində güclü rəqiblərin meydana çıxması, alternativ tibbi xidmətlərə tələbin artması bu xərcləri qaçılmaz edir. Səhiyyə təmsilçiləri cərrahiyyə əməliyyatlarının keyfiyyət göstəricilərinin, xidmətin yaxşılaşmasına və innovativ üsulların işlənilməsinə diqqəti artırır və daha çox insanın səhiyyə xidmətlərindən faydalanmasına imkan yaratmaq üçün yeni xidmət modelləri tətbiq edirlər. Təbii ki, bütün bunlar səhiyyəyə daha çox vəsaitin ayrılmasına səbəb olur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Təşviqat qaydalara uyğun aparılmalıdır

### Bələdiyyə seçkilərində təşviqatın aparılmasına dair ümumi tələblər

*Əvvəli 1-ci səh.*

Xarici dövlətlər, xarici hüquqi şəxslər, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, 18 yaşına çatmamış vətəndaşlar, beynəlxalq təşkilatlar və beynəlxalq ictimai hərəkatlar, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları, dövlət və bələdiyyə qulluqçuları, hərbi qulluqçular, xeyriyyə təşkilatları, dini birliklər, dini idarə və təşkilatlar, seçki komissiyaları, seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri və digər vəzifəli şəxslər tərəfindən seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması qanunla qadağan edilir.

Xarici dövlətlərin, xarici hüquqi şəxslərin, xarici vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin, dövlətin və bələdiyyənin seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxslərinin nizamnamə kapitalında iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, həmin hüquqi şəxslər tərəfindən də hər hansı bir seçkiqabağı təşviqatın aparılması yolverilməzdir.

Seçkiqabağı təşviqat müxtəlif üsullarla aparıla bilər.

Seçkiqabağı təşviqat kütləvi informasiya vasitələri ilə, kütləvi tədbirlərin keçirilməsi yolu ilə, çap olunmuş audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə və qanunla qadağan edilməyən digər üsullarla aparılır.

Qeydə alınmış namizəd, siyasi partiya və siyasi partiyalar bloku seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirir.

Kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqat açıq müzakirələr, “dəyirmi masa”lar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, tele və videoverilişlər, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

Mülkiyyət növünə və yayım imkanlarına görə Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud azına yayımlanan ictimai teleradio verilişləri təşkilatlarının, təsisçiləri bələdiyyə qurumları hesab edilən teleradio təşkilatlarının, təsisçiləri fiziki və hüquqi şəxslər olan və xüsusi mülkiyyətə əsaslanan teleradio verilişləri təşkilatlarının, təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşən, Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud azına yayımlanan və həftədə azı bir dəfə çıxan dövlət büdcəsindən maliyyələşən dövri mətbuat nəşrlərinin, təsisçiləri bələdiyyə qurumları hesab edilən dövri nəşrlərin və təsisçiləri ayrı-ayrı fiziki və ya hüquqi şəxslər olan özəl dövri nəşrlərin seçkiqabağı təşviqat prosesində iştirakı nəzərdə tutulur.

İctimai teleradio təşkilatları, təsisçiləri bələdiyyə qurumları hesab edilən teleradio təşkilatları tərəfindən seçkiqabağı təşviqat üçün ayrılan efir vaxtı və dövlət büdcəsindən maliyyələşən dövri mətbuat nəşrləri, təsisçiləri bələdiyyə qurumları hesab edilən dövri nəşrlər tərəfindən seçkiqabağı təşviqata dərc üçün ayrılan yer ödənişsiz və ödənişli əsaslarla, özəl teleradio təşkilatları və özəl dövri nəşrlər tərəfindən isə yalnız ödənişli əsaslarla həyata keçirilir.

Verilişləri Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan ictimai teleradio verilişləri təşkilatları, habelə dövlət büdcəsindən maliyyələşən dövri nəşrlərin redaksiyaları bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyalar bloklarına seçkiqabağı təşviqat aparmaq üçün şərait yaratmağa borcludurlar.

Azərbaycan Respublikası ərazisinin yarısından az hissəsində verilişləri yayımlanan teleradio verilişləri təşkilatları, habelə ictimai teleradio verilişləri təşkilatlarının müvafiq bölmələri, yaxud dövlət büdcəsindən maliyyələşən Azərbaycan Respublikası ərazisinin yarısından az hissəsində yayımlanan dövri nəşrlərin redaksiyaları bələdiyyələrin 1/3-dən çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına müvafiq inzibati ərazi vahidində seçkiqabağı təşviqat aparmaq imkanı yarada bilərlər.

Qanunda nəzərdə tutulmuş teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyalarının təsisçiləri bələdiyyə qurumları hesab edilərsə, onlar müvafiq bələdiyyənin üzvlüyünə qeydə alınmış namizədlər üçün seçkiqabağı təşviqatın aparılmasına şərait yaratmağa və qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku üçün bərabər imkanlar yaratmağa borcludurlar. Bu teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat fəaliyyətində tamamilə iştirak etmədikdə, formasından asılı olmayaraq, hər hansı materialın nəşrindən və ya efir vaxtının verilməsindən imtina edə bilərlər.

Seçkiqabağı təşviqat başlanandan sonra bir həftə müddətində qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları arasında onların verdikləri ərizələr əsasında ictimai teleradio verilişləri təşkilatlarında ayrılmış pulsuz efir vaxtının bölgüsü məqsədilə MSK tərəfindən, dövlət dövri mətbuat nəşrlərinin ayırdığı pulsuz dərc yerinin bölgüsü məqsədilə seçkiqabağı təşviqat müddətinin başlandığı gün müvafiq dövri nəşrlərin redaksiyalarında püşkatma keçirilir.

Püşkatmanın keçirilməsində müvafiq seçki komissiyasının üzvləri, namizədlər, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, yaxud vəkil edilmiş şəxsləri, qanunvericiliklə müəyyən olunmuş qaydada müşahidəçi statusu almış Azərbaycan Respublikasının vətəndaşları, KİV nümayəndələri və beynəlxalq müşahidəçilər iştirak edə bilərlər.

İctimai teleradio verilişləri təşkilatlarının seçkiqabağı təşviqat üçün ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır.

Təsisçiləri dövlət orqanları, idarələri, təşkilatları olan və ya dövlət büdcəsindən maliyyələşən, Azərbaycan Respublikasının ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan dövri nəşrlərdən hər birində ayrılan pulsuz nəşr səhifələrinin həcmi seçkiqabağı təşviqat dövründə həftəlik nəşr səhifələrinin ümumi həcminin azı 10 faizini təşkil etməlidir.

İctimai teleradio verilişləri təşkilatları və dövri nəşrlər təşviqat aparmaq məqsədilə namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına müqavilə əsasında pullu efir vaxtı və dövri nəşrlərin redaksiyaları öz səhifələrində ödənişli əsaslarla yer ayırmalıdırlar. Bu zaman ayrılan pullu efir vaxtının ümumi həcmi ayrılan pulsuz efir vaxtının ümumi həcmindən az və həmin həcmdən iki dəfədən artıq ola bilməz, nəşr səhifələrində ödənişli dərc üçün ayrılmış yerin ümumi həcmi isə ayrılan pulsuz nəşr səhifələrinin həcmindən az olmamalıdır.

Teleradio təşkilatlarında və dövri nəşrlərdə ödənişli əsaslarla aparılan təşviqatın vaxtı seçkiqabağı təşviqat subyektləri arasında onların verdikləri bildiriş əsasında teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları tərəfindən keçirilən püşkatma nəticəsində müəyyənləşdirilir.

Seçkiqabağı təşviqat materiallarının efirə verilmə və ya dərc olunma şərtləri bütün namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları üçün eyni olmalıdır.

Püşkatma keçirildikdən sonra efir vaxtı və dövri nəşrlərdə dərc üçün yer bağlanmış müqavilə əsasında təqdim edilir. Müqavilədə seçkiqabağı təşviqatın forması, efirəçıxma vaxtı və tarixi, dərcetmə tarixi, verilən efir vaxtının müddəti, dərc üçün ayrılan yerin həcmi, ödənişin qaydası və həcmi, aparıcı jurnalistin teleradio verilişləri prosesində iştirak forması və şərtləri nəzərdə tutulmalıdır.

Efir vaxtının haqqı və dövri nəşr səhifələrində ayrılmış yerin dəyəri yalnız namizədlərin xüsusi seçki fondu və ya siyasi partiyaların, siyasi partiyalar bloklarının vahid seçki fondu vəsaitləri hesabına ödənilməlidir.

Püşkatma keçirildikdən sonra ayrılmış efir vaxtından və dövri nəşrlərin səhifələrindəki yerdən imtina edilərsə, bu barədə efirə çıxmağa 2 gün qalmış müvafiq teleradio təşkilatına, dərcetmə gününə isə azı 5 gün qalmış müvafiq dövri nəşrin redaksiyasına məlumat verilməlidir. Teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları sərbəstləşdirilmiş efir vaxtından və yerdən seçkiqabağı təşviqat məqsədləri üçün istifadə edə bilməzlər. Bu qurumlar seçkiqabağı təşviqat istisna olmaqla, həmin sərbəstləşdirilmiş imkanlardan öz mülahizələri üzrə istifadə edirlər.



Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçkiqabağı təşviqat materiallarının verilməsini malların, xidmətlərin reklamları ilə və ya digər proqlamların verilməsi ilə dayandırmaq qadağandır.

Kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqat yığıncaqlar, vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s. formalarda aparılır.

Dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə, siyasi partiyalara, siyasi partiyalar bloklarına vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində köməklik etməlidirlər.

Dövlət və ya bələdiyyə mülkiyyətində olan, seçkiqabağı tədbirlərin keçirilməsi üçün yararlı yer (bina, otaq) seçki komissiyalarının sifarişi ilə seçkiqabağı təşviqat subyektlərinin seçki komissiyaları ilə razılaşdırdıqları vaxtda seçicilərlə görüşlər üçün istifadəyə mülkiyyətçilər tərəfindən pulsuz verilir. Göstərilən yer qeydə alınmış namizədlərdən birinə, siyasi partiyaya, siyasi partiyalar blokuna seçkiqabağı təşviqatın aparılması üçün verilmişsə, mülkiyyətçi digər namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna eyni istifadə şərtləri ilə həmin yeri verməkdən imtina edə bilməz.

Seçicilərlə görüşlər, yığıncaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara məxsus bina və otaqları müqavilə əsasında icarəyə götürmək hüququna malikdirlər.

Dövlətin müvafiq reyestrlərinə daxil edilmiş, mədəniyyət obyektləri sayılan bina və avadanlıq təşviqat məqsədləri üçün istifadə edilə bilməz.

Seçki komissiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şərait yaradırlar, müvafiq icra hakimiyyəti orqanları isə həmin kütləvi tədbirlərin keçirilməsində təhlükəsizliyi və ictimai asayişi qanunvericiliyə uyğun olaraq təmin edirlər.

Çap, audiovizual və digər seçkiqabağı təşviqat materialları buraxmaq (qanunla müəyyənləşdirilmiş qaydada) hüququndan istifadə etməklə də qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları seçkiqabağı təşviqat apara bilərlər.

Seçkiqabağı çap və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumat olmalıdır.

Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyalar blokları çap olunan seçkiqabağı təşviqat materialları haqqında tam məlumatları və ya onların surətlərini, habelə bu materialları sifariş edən və hazırlayan təşkilatların ünvanları barədə məlumatları müvafiq seçki komissiyasına təqdim etməlidirlər.

Dairə seçki komissiyalarının təklifi ilə yerli icra hakimiyyəti orqanları və bələdiyyə qurumları səsvermə gününə azı 30 gün qalmış hər bir seçki məntəqəsinin ərazisində təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün yer müəyyənləşdirməlidirlər. Həmin yerlər elə olmalıdır ki, seçicilərin gəlməsi üçün əlverişli olsun və orada yerləşdirilən məlumatları oxumaq mümkün olsun.

Səsvermə üçün ayrılmış otaqlarda və ya onların girişində, dövlətin müvafiq reyestrinə daxil edilmiş tarix və mədəniyyət abidələri sayılan binalarda, qurğularda və otaqlarda seçkiqabağı təşviqat materialları yerləşdirilə bilməz.

Seçkiqabağı təşviqat zamanı sui-istifadə hallarına yol verilməməlidir.

Seçkiqabağı təşviqat zamanı təşviqat aparmaq hüququna malik olan subyektlər tərəfindən təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla, seçicilərə pul vəsaiti, maddi sərvət, qiymətli kağızlar, hədiyyələr vermək və onları qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkmək, dövlət və bələdiyyə mülkiyyətində olan nəqliyyat vasitələrindən pulsuz istifadə etmək, dövlət orqanlarının və bələdiyyə qurumlarının fəaliyyətini təmin edən rabitə və informasiya vasitələrindən istifadə etmək, xeyriyyə fəaliyyəti ilə məşğul olmaq, seçicilərə mükafat və bəxşiş təklif etmək, onları cəza ilə hədələmək, təzyiq göstərmək və digər qanunazidd üsullarla səsverməyə və ya səsvermədən çəkinməyə sövq etmək, digər namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təşviqat kampaniyalarına müdaxilə etmək və pozmaq, onların seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmaq, təşviqat plakatlarını və digər təşviqat materiallarını məhv etmək və korlamaq yolverilməzdir.

Hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr, sosial, irqi, milli, dini və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik yaradan, əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqatın aparılması qadağandır.

Seçkiqabağı təşviqat aparmaq üçün şərait yaratmış teleradio verilişləri təşkilatları və dövri nəşrlər, eləcə də seçkiqabağı təşviqatın digər subyektləri müqavilə ilə öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə borcludurlar.

Efir vaxtından və dövri nəşrlərdən istifadə zamanı təşviqat prosesinin subyektləri müqavilədə müəyyənləşdirilmiş şərtləri pozduqda teleradio verilişləri təşkilatları efir vaxtının verilməsi və dövri nəşrlər isə dərc üçün yerin ayrılması haqqında müqavilənin ləğvi barədə məhkəməyə müraciət edə bilərlər.

Seçkiqabağı təşviqat zamanı qanunvericiliyin tələblərinin pozulması Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq cinayət, mülki və inzibati məsuliyyətin yaranmasına səbəb olur.

Seçki Məcəlləsi ilə seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti MSK nəzdində yaradılmış və əsasən jurnalistlərdən ibarət olan mətbuat qrupu həyata keçirir.

***Almas QƏHRƏMANLI,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# Aparıcı qüvvə

### Gənclər müstəqil Azərbaycanın gələcəyidir





Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində həyata keçirilən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Xüsusilə son dövrlər ölkə rəhbərinin dövlət qurumlarına gənc kadrların təyinatı, onları qəbul edərək tövsiyə və tapşırıqlar verməsi onu deməyə əsas verir ki, artıq gənclərə böyük etimad göstərilməklə cəmiyyətə yeni nəfəs gəlir.

Ölkə rəhbərinin kadr siyasətində gənclərə üstünlük verməsi onu göstərir ki, onlara böyük inam, etimad var. Bu baxımdan son illər bölgələrdə də işbilən, təcrübəli gənclərin yüksək vəzifələrə təyin olunması istiqamətində müəyyən işlər görülür. Bu barədə Ağstafada rayon gəncləri ilə keçirilən toplantıda geniş söhbət getmişdir. Toplantıda gənclərlə bağlı görülən işlərə nəzər salan rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev demişdir ki, gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı qüvvədir. 2 fevral 1996-cı ildə Azərbaycan gənclərinin birinci forumu və Ulu Öndər Heydər Əliyevin gənclərlə keçirdiyi görüş respublikamızın müstəqilliyi, ərazi bütövlüyünün qorunması və hüquqi, demokratik dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi ölkədə vahid gənclər siyasətinin işlənib hazırlanmasının vacibliyini ortaya qoydu və aidiyyəti dövlət strukturları qarşısında konkret vəzifələr müəyyənləşdirdi. Bu vəzifələr Azərbaycan dövlətinin gənclər siyasətinin düzgün icrasından, yüksək vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasından, idmanın inkişafından, bir sözlə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi və bütün bunlar üçün sosial-iqtisadi şəraitin yaradılması, gənclərin dünyaya inteqrasiyası və onların vətənpərvərlik tərbiyəsindən ibarət idi.

Toplantıda gənclər siyasətinin Ağstafa rayonunda uğurla həyata keçirilməsi, rayon gənclərinin hərbi vətənpərvərlik, dövlətçilik, milli-mənəvi ruhda tərbiyə olunması, gənclərin məşğulluğunun təmin olunması, dövlət və yerli ozünüidarəetmə orqanlarının işində onların fəal iştirakının təmin edilməsi barədə söz açıldı. Eyni zamanda, gənclərin asudə vaxtlarının səmərəli təşkili, sağlam həyat tərzinin təmin edilməsi, narkomaniya və QİCS-in profilaktikası, onları müxtəlif dini təriqətlərin ekstremist və ayrıseçkilik çağırışlarından qorumaq sahəsində mütəmadi olaraq aidiyyati qurumlarla müxtəlif tədbirlərin həyata keçirilməsi barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün Heydər Əliyev və Gənclər mərkəzlərinin fəaliyyəti daha da gücləndirilmiş, rayonda fəaliyyət göstərən Peintibol Atıcılıq Mərkəzinin fəaliyyətinin gücləndirilməsi üçün tədbirlər planı təsdiq edilmişdir. Gənclərin həqiqi hərbi xidmətə yola salınması ilə bağlı mərasimlər də böyük təntənə ilə təşkil edilmişdir.

Toplantıda rayonun idarə, müəssisə və təşkilatlarında olan vakant iş yerləri haqqında da iştirakçılara ətraflı məlumat verilmişdir. Qabaqcadan əldə edilmiş məlumatlara əsasən həmin gün gənclərə təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə olan vakant iş yerləri təklif olunmuşdur.

Tədbirdə Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Feruz Həsənov, Ağstafa şəhər 1 nömrəli orta məktəbin direktoru Elvin İmaməliyev, Heydər Əliyev Mərkəzinin direktoru Ləman Cəlilova, YAP Ağstafa rayon təşkilatının nümayəndəsi Aytən Məmmədli, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin rəisi Nazim Çələbiyev və başqaları çıxış edərək gənclərlə bağlı həyata keçirilən tədbirlərdən danışmış və qeyd etmişlər ki, Azərbaycan gəncliyi onlara göstərilən qayğının nəticəsi olaraq fəallıqlarını artırmağa və bunu öz əməli fəaliyyətlərində göstərməyə çalışır. Çıxış edənlər Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin reallaşması üçün arzu və təkliflərini bildirmiş və bununla bağlı qarşıda duran vəzifələrdən danışmışlar. Diqqətə çatdırmışlar ki, İlham Əliyevin Prezident olduğu 16 ildə ölkəmizdə müxtəlif sferalarda, istər mədəniyyət, istər idman, istərsə də elm və təhsil sahələrində gənclərə verdiyi dəstək onlara böyük stimul verir və məhz bu səbəbdəndir ki, Vətənimiz bir sıra mötəbər idman yarışlarına, festivallara, eləcə fə konfranslara evsahibliyi edir. Odur ki, Ağstafa gəncləri dövlət başçısının daxili və xarici siyasətini dəstəkləyir, hər zaman onunla həmfikir olduqlarını bildirirlər.

Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup gəncə rayon icra hakimiyyətinin fəxri fərmanları təqdim olundu. Gənclər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Ağstafa rayon gəncləri adından müraciət qəbul etdilər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Ermənistanda sosial problemlər dərinləşir

### İşsizliyin səviyyəsinin azaldılması ilə bağlı Paşinyan hökumətinin vədi yerinə yetirilməyib

**Ermənistanda son hakimiyyət dəyişikliyindən sonra ölkədə hansısa ciddi dəyişikliklərin olacağına dair ümidlər yavaş-yavaş yerini bədbinliyə verir. Çünki dəyişən heç nə yoxdur. Baş nazir vəzifəsini tutduqdan sonra Nikol Paşinyan da sadəcə quru vədlər verməklə kifayətlənir və reallıqda müsbətə doğru hansısa addımlar atmır.**

Halbuki Nikol Paşinyan baş nazir seçildikdən sonra gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq, sosial-iqtisadi sahədə problemlər qismən də olsa aradan qaldırılacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərəcək.

Lakin hadisələrin inkişaf axarı göstərir ki, forpost dövlət qarşıdakı dövr ərzində də sosial, siyasi və iqtisadi problemlərdən yaxa qurtara bilməyəcək.

Yerli mətbuatın verdiyi xəbərə görə, cari ilin 9 ayı ərzində Ermənistanda sosial proqramların cəmi 50 faizi həyata keçirilib. İşsizliyin səviyyəsinin azaldılması ilə bağlı Paşinyan hökumətinin vədi yerinə yetirilməyib. Ölkədə əlillərin məşğulluğu isə dörd dəfə azalıb.

Vurğulanır ki, geriləmənin əsas səbəbi korrupsiya və “kölgə iqtisadiyyatı” ilə mübarizə pərdəsi altında idarəçiliyin yarıtmaz olmasıdır. “Lragir” qəzeti yazır ki, ötən ildə sosial proqramların həyata keçirilməsi 2019-cu ilin doqquz ayında olduğundan 25 faiz çox olub: “Dövlət büdcəsindən 250 min işsiz vətəndaş üçün ayrılan vəsaitin cəmi 25 faizi onların məşğulluğunun təmin edilməsinə xərclənib. Minlərlə vətəndaş sosial müdafiədən məhrum olub, Əmək və Sosial Məsələlər Nazirliyi konstitusiyanın müvafiq maddələrini kobud şəkildə pozmaqda davam edir”.

Qeyd olunur ki, hökumət işsizlərin özlərini günahlandırıb. Görünən odur ki, bu gün xaricdən gətirilən işçi qüvvəsinə üstünlük verilməkdədir. Az maaşa qane olmayan erməni fəhlələri hindistanlılar əvəz edirlər. Ermənistan hökuməti gələn ildən məşğulluq məsələləri ilə bağlı proqrama müsbət dəyişikliklər olacağını vəd edir, lakin ekspertlər bu vədə skeptik yanaşırlar. Sosial problemlərdən çıxış yolu tapa bilməyən vətəndaşlar çarəni etiraz aksiyalarında görürlər.

Bu arada Paşinyan hökuməti növbəti dəfə beynəlxalq tədbirdən böyük uğursuzluqla qayıdıb. Belə ki, ötən həftə Vaşinqtondakı Alman Marşal Fondunda keçirilən və ABŞ-da səfərdə olan Ermənistan parlamenti spikerinin müavini Vahe Enfiajyanın, Lilit Makuntsun (Paşinyanın “Mənim addımım” alyansının rəhbəri), Edmon Marukyanın və Tatevik Hayrapetyanın çıxış etdikləri “Ermənistanda məxməri inqilabın vədləri: demokratik islahatların irəli aparılması və ABŞ ilə strateji əməkdaşlığın gücləndirilməsi” adlı tədbirinə bir neçə həftə hazırlıq görülsə də, iclasa cəmi 13-14 nəfər qatılıb.

Tədbirdə çıxış edən erməni deputatlar iddia olunan “demokratik islahatlar”ın mahiyyəti məsələsinə aydınlıq gətirməyib, iqtisadiyyatın gücləndirilməsi və Ermənistan əhalisinin rifahının yaxşılaşdırılması istiqamətində Paşinyan hakimiyyətinin hansı işlər gördüyü barədə suallara cavab verməyiblər. Erməni parlamentarilər “məxməri inqilab” adlandırdıqları prosesin xarici siyasətdə dəyişikliyə səbəb olmayacağı barədə tezisi təkrarlayıblar. Onlar ABŞ-la strateji dialoqa başladıqlarını qeyd etsələr də, bu dialoqun hansı məzmuna malik olduğu ilə bağlı sualın cavablandırılmasında çətinlik çəkiblər.

Mövcud vəziyyət işğalçı ölkədə xaotik durumun daha da dərinləşdiyini göstərir. Belə vəziyyətdə insanların maddi rifah halının yaxşılaşması, Ermənistanın düşdüyü izolyasiya vəziyyəti ölkənin xilası üçün müsbət heç nə vəd etmir. Bu arada məlum olub ki, Ermənistan İctimai Şurasının keçmiş sədri Vazgen Manukyan tərəfindən yaradılmış “Vernatun” ictimai-siyasi klubu Qarabağda yığıncaq keçirəcək.

Yerli medianın verdiyi xəbərə görə, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryan, sabiq baş nazir Xosrov Arutunyan, “İrs” partiyasının keçmiş sədr müavini Ruben Akopyan, Robert Koçaryanın ofisinin rəhbəri Viktor Soqomonyan və başqalarının üzv olduğu “Vernatun” klubu əsas mövzular kimi Qarabağ münaqişəsinin həlli və Ermənistan hakimiyyətinin səriştəsizliyini seçib.

Amma siyasi kuluarlarda Qarabağda toplaşacaq Paşinyan əleyhdarlarının qondarma rejimdə 2020-ci ildə keçiriləcək “prezident seçkiləri”nin əsas namizədlərindən biri olan Vitali Balasanyana dəstək verəcəkləri gözlənilir. Keçmiş hərbi xuntanın əsas və fəal üzvlərindən sayılan Balasanyan Nikol Paşinyan və onun “Mənim addımım” blokunu kəskin ifadələrlə tənqid edir.

Bütün bunlar göstərir ki, həm Ermənistanda, həm də işğal olunmuş ərazilərdə xaotik vəziyyət dərinləşir. Belə vəziyyət isə ermənilərin qarşıdakı günlər ərzində daha böyük problemlər yaşaması deməkdir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

**İnanmaq çətindir, ona görə ki, dünyanın heç bir yerində heç vaxt qışın astanasında nar çiçəkləmir, amma Bakıda çiçəkləyib! Noyabrın son günlərinin soyuq küləkləri əsir, bayır-bucaqda işə dərsə, ya da sadəcə gəzintiyə çıxanların geyimləri tədricən dəyişir. Artıq palto geyirlər, kurtkalar qalınlaşır, adamlar başlarını örtür, boyunlarına şərf bağlayırlar. Küləklər ağacların saralan yarpaqlarından səmaların not dəftərinə xəzan simfoniyasını cızır.**



# Qışın astanasında nar baharı





Nar necə çiçəkləyə bilər belə havada? İqlimmi dəyişir, dünyanınmı axırıdır? Hər gün obaşdan yüzlərlə süpürgəçi paytaxtın küçələrinə çıxır, qucaq-qucaq yarpağı süpürüb aparırlar. Göyçaylı dostumdan soruşuram ki, orda nar çiçəyi tapmaq olarmı? Şaqqanaq çəkib gülür ki, rəhmətliyin oğlu, indi nəinki nar çiçəyi, heç narın özünə də nadir halda rast gəlirsən! Deyirəm ki, Bakıda nar çiçəkləyib, uydurursan deyir, inanmır.

Ona iki gün ard-ardınca Bakıda keçmiş Qubernator bağında çəkdiyim nar çiçəklərinin şəkillərini, videolarını göndərirəm. Təəccüblənir ki, mümkün deyil! Yenə kameranı əlimə alıb Filarmoniya bağına gedirəm, fəvvarənin ətrafında çiçəkləyən nar ağaclarının şəklini çəkirəm. Bəzən insan gözlə gördüyü bir hadisəyə şübhə ilə yanaşa bilir. Ağaclara qulluq edən bağbandan soruşuram ki, qardaş, bu nə sirdir, axı indi narın çiçəkləyən vaxtı deyil! Gülümsəyib deyir: "Bu ağaclar dekorativ bitki sayılır, bəhər üçün yox, gözəllik üçün əkilib. İki ay olar ki, çiçəkləsələr də, hələ solmayıblar. Onların vəzifəsi bu bağa zinət vermək, zövq oxşamaqdır".

Sevinirəm, çünki "Azərbaycan" qəzeti son 3-4 ildə Dənizkənarı Milli Parkda nar bağının salınması təşəbbüsünü bir neçə dəfə irəli sürmüşdü. Səbəbini də yazmışdıq ki, nar hər bir azərbaycanlı üçün bitki olmaqdan savayı, həm də gözəllik rəmzidir. Biz qəlbimizdə nar ağacına olan sevgini əcnəbilərə də nümayiş etdirməliyik. Hər gələn qonaq da bilməlidir ki, nar bizim üçün əsrarəngiz bitkidir. Yaponlar üçün sakura - albalı budağı kimi.

Sakura budağı beş-on gün üstündə gül saxlayırsa, nar ağacı Azərbaycanda təxminən mayın 15-dən çiçəkləməyə başlayır və bu nar baharı nə az-nə də çox, düz üç ay - payızadək davam edir. Əgər Bakı bulvarında bəhər verən və dekorativ nar ağaclarından alleya salınarsa, deməli, biz yarım ilə yaxın özümüzə də, əcnəbilərə də əsrarəngiz bir nar baharı hədiyyə edə bilərik.

Məsələ burasındadır ki, narla bağlı əfsanələr Qərb mədəniyyətindən də eyni poetik tərzdə keçir. Amma Şərq dünyası narı bütün meyvələrin tacı kimi daha uca tutub, onun şəninə daha çox əfsanələr yaradıblar, şeirlər bəstələyiblər. Azərbaycanlılar da nara məhəbbətində heç bir xalqdan geridə deyil. Xatirələrin kəpənək qanadlarında çırpınaraq ruhumuzda əbədi pərvazlanan bu nar ləçəkləri bizim üçün təbiətin ən gözəl, həzin və lirik bəstəsidir.

Narla bağlı bir neçə gün əvvəl baş verən əhvalatı danışmaq yerinə düşərdi. Dostumun həyat yoldaşı Barselonada ağır xəstəlikdən kimyaterapiya alır və cərrahiyyə əməliyyatına hazırlaşmaq, bədənini zəhərli maddələrdən təmizləmək üçün qeyri-ənənəvi yola əl atır. Ona yerini dəyişməyi, nəsə gözəl bir ölkəyə getməyi tövsiyə edəndə çox yeri araşdırır, axırda Azərbaycanı seçir. Görüşəndə xahiş etdi ki, ona Bakını göstərim, ölkə haqqında nağıllar, əfsanələr danışım. Gördüyü hər şeydən güc almaq, ruhuna nur çiləmək istəyirdi. Onunla Bakını gəzdik, İçəri şəhəri dolaşdıq, "Yanardağ"a baş çəkdik. Tanış olduqca uşaq kimi sevinirdi. "Yanardağ"da alovun dillərinə, Bakıda Alov qüllələrinin ucalığına əllərini uzadıb seyr edirdi və dodaqlarının altında astadan pıçıldayırdı ki, mənə kömək edin, məni sağaldın. İçəri şəhərdə yerə döşənən daşları sığallayırdı ki, ilahi, necə də gözəldirlər!

Onun xəstə ruhuna nikbinlik gətirmək üçün nar baharından danışdım: "Bir az tez gəlsəydiniz əfsanəvi çiçəklərə barmaqlarınızın ucu ilə toxuna bilərdiniz, onlardan güc alardınız". İçəri şəhərdə qala divarının yanında qonağımız bir stəkan nar şirəsi içib gülümsəyir: "Çiçəyini görmədim, amma meyvəsini daddım, şirəsini içdim. Dünyanın çox yerində nar yemişəm, amma buradakı nardan heç yerdə tapmazsan. Çox dadlıdır".

Ona hara getdiyimizi demirəm. İçəri şəhərdən Filarmoniya bağına keçib çiçəyə bürünən nar ağaclarının yanına gəlirik. Baxıb deyir ki, günahsız körpə təbəssümü kimi gözəldilər, görəsən nə çiçəyidir?

- Sizi təbrik edirəm. - deyirəm cavab əvəzində.

- Nə münasibətlə? - soruşur.

- Siz bəxti gətirənlərdən oldunuz, nar çiçəyi ilə görüşə bildiniz!

Heyrətdən və sevincdən bilmir ki, nə etsin. Lal-dinməz durub baxır, kipriyindən asılan bir damla göz yaşı qopub gedə bilmir, əlini yenidən nar çiçəklərinin ləçəklərinə toxundurur: - Allahım, necə də zərifdirlər, nə qədər gözəldirlər? Azərbaycanlılar üçün nar çiçəyi nə qədər müqəddəsdir? - deyə soruşur.

Cavab verirəm ki, bizim müqəddəs kitabımızda deyilir ki, nar ağacları cənnət bağında bitir. Elə sizin Bibliya əfsanələrində də nar əsl "cənnət alması" imiş. Sevimli peyğəmbərimiz isə paxıllığı, nifrəti və kini insanın içindən təmizləyən meyvə kimi nar yeməyi məsləhət görərdi.

Sevinir: - Elə bil mənim üçün deyilib...

Vidalaşıb ayrılırıq. Narla bağlı internetə baxıram. Xeyli məlumat var. Narın rəsmi Misir ehramlarında, qədim Bizans parçalarının üzərində, əntik yunan və ərəb ornamentlərində tapılmışdır. Qədim yunan mifologiyasında narın öz yeri var. Yunanlar inanardılar ki, nar yemək insana ölümsüzlük bəxş edir. Nar Yunanıstanda həm də ər-arvad sadiqliyinin simvolu olmuşdur. Çin toylarında şirin nar dənələrini yeməklə bəylə gəlinə xeyir-dua verirlər. Azərbaycan əfsanələrində isə deyilir ki, nar sevgi və məhəbbət simvoludur. Qədim zamanlarda sözlə sevgisini bildirməkdə çətinlik çəkən gənclər qızlara nar göndərməklə öz hisslərini büruzə verər, sevgilərini etiraf edərdilər.

Qızlarımıza Nargilə, Gülnarə kimi adların verilməsi də bizim nara olan sonsuz bağlılığımızın nişanəsidir. Onlar ər evinə köçərkən başlarına atılan duvaq da nar çiçəyinin rəngində olub. Nara bəstələnən mahnıların sayı-hesabı yoxdur.

Əgər yaponlar sevdikləri sakura budağını dünyaya tanıda biliblərsə, biz niyə nar ağacı ilə bağlı bütün bilikləri və əfsanələri yaz çələngi kimi başımızın üstünə qaldırmayaq? Filarmoniya bağında dekorativ nar ağaclarının əkilməsi landşaft memarlığının dövlət tərəfindən mükəmməl həllidir. Bu minvalla ümid etmək olar ki, artıq şəhərdə məskən salan dekorativ nar ağacları tədricən artacaq və ölkəmizə gələn əcnəbilər də bizim qədər narla bağlı əfsanələr və əhvalatlarla tanış olacaqlar. İstənilən ölkəyə gedən turist ilk öncə yerli əhalinin müqəddəs və əziz saydığı, xüsusi dəyər verdiyi nə varsa, onunla maraqlanır. Onu görməyə, dərk etməyə və yadda saxlamağa çalışır. Bir nar çiçəyinin şərqli ruhumuza bütün gözəlliklərin və eşqlərin rəmzi kimi hakim kəsilməsi qəribə deyilmi?

Özünü unudub nar çiçəyinin ləçəklərinin arxasındakı qərib fəzaları kəşf edən və geriyə yolu olmayan şairlərimiz, bəstəkarlarımız varsa, nara qoşulan mahnılar heç vaxt dəbdən düşmürsə, deməli, biz də yaponlar kimi minlərlə turistə anlada bilərik ki, Azərbaycan misilsiz əfsanələrin vətənidir, onun hər qarış torpağında, hər açılan çiçəyində bir sevgi dastanı yatır. Nar çiçəyi, nar ağacı bu baxımdan ecazkar gücə malikdir. Yalnız torpaq və sərhədlər müqəddəs deyil. Bir nar ləçəyi də Vətən qədər əzizdir. Əsgər necə Vətən uğrunda - bir ovuc torpaq uğrunda ölüm-dirim savaşına atıla bilirsə, biz də içimizdə xalqımıza, onun tarixinə və təbii sərvətlərinə müqəddəs bir sevgi yaşatmalıyıq.

Vətən elə bir məfhumdur ki, biz onun hər qarışını, hər çiçəyini, daşını belə qənirsiz bir sevgi ilə sevməsək və bütün dünyaya bunu təlqin etməsək, əcnəbilər nə bizi anlayacaq, nə də ki, ipəyimizin, xalçalarımızın, muğamımızın və tərənnüm etdiyimiz meyvələrin, çiçəklərin bənzərsizliyini dərk edəcəklər. Biz dövlətimizin atdığı nəcib addıma əməlimiz, sevgimizlə dəstək verməliyik. Bunun üçün gənclər, uşaqlar nar çiçəkləri ilə birgə şəkil çəkdirməli və bu görüntüləri bölüşməlidirlər. Çünki nar dünyanı fəth etməyə qadir olan Azərbaycan brendidir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Bağdadda daha 4 nümayişçi öldürüldü



İraq təhlükəsizlik qüvvələrinin Bağdadda hökumət əleyhinə aksiyaya müdaxiləsi nəticəsində 4 nəfər həlak olmuş, azı 40 nəfər yaralanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, Rəşadiyyə meydanında Sinək və Əhrar körpüləri arasında polis əməkdaşları nümayişçilərə qarşı döyüş güllələrindən və gözyaşardıcı qazdan istifadə etmişlər. Bir gün əvvəl Bağdadda etiraz aksiyaları zamanı 3 nəfər həlak olmuş, 35 nəfər yaralanmışdır.

İraqda hökumət əleyhinə aksiyalar oktyabrın 1-dən bəri davam edir. Əhali işsizliyə və korrupsiyaya etiraz edir. Etirazlar başlayandan bəri ölkədə 300 nəfərdən çox adam həlak olmuş, 15 mindən çox nümayişçi xəsarət almışdır.

## Alimlər uzunömürlüyün sirrini tapdılar



Yaponiyada RİKEN İnteqrativ Tibb Elmləri Mərkəzi və Keyo Universitetinin Tibb Məktəbinin alimləri aşkar etmişlər ki, ən uzunömürlülər, yəni yaşı 110-dan yuxarı adamlar sitotoksik CD4 T-hüceyrələri adlandırılan immun hüceyrələrinə daha çox malikdirlər. Adi uzunömürlülərdən fərqli olaraq, ən uzunömürlülər bir növ nadir qrupdur. Məsələn, əhalisinin yüksək uzunömürlülüyü ilə tanınan Yaponiyada 2015-ci ildə 100 yaşdan yuxarı 61 min nəfərdən çox adam qeydə alınmışdır. Onların 146-sı 110 yaşdan yuxarı idi.

Tədqiqatlar göstərmişdir ki, bu adamlar müxtəlif infeksiyalara və hətta xərçəngə tutulmurlar. Bu, alimlərdə belə bir fikir yaratmışdır ki, ən uzunömürlülərin immun sisteminin xüsusi əlamətləri var. Bu fərziyyəni yoxlamaq üçün tədqiqatçılar ən uzunömürlülərin və eyni zamanda nəzarət qrupunun daha cavan nümayəndələrinin qanda sirkulyasiya edən immun hüceyrələrini öyrənmişlər. Ümumilikdə 7 ən uzunömürlüdən 41208 hüceyrə və 50-80 yaşlı 5 nəfərdən 19994 hüceyrə alınmışdır. Tədqiqatçılar aşkarlamışlar ki, ən uzunömürlülərdə B hüceyrələrinin sayı nəzarət qrupundakından aşağıdır, T hüceyrələrinin sayı isə təxminən eynidir. Bir növdən başqa, ən uzunömürlülər sitotoksik T hüceyrələrinin çox yüksək səviyyəsinə malik idilər. Onların sayı bütün T hüceyrələrinin 80 faizini təşkil edirdi. Adi adamlarda isə bu rəqəm 10, yaxud 20 faizə bərabərdir.

## Kolumbiya paytaxtında komendant saatı tətbiq olundu



Boqota meri Enrike Penyalosa kütləvi iğtişaşlar və etirazlar fonunda Kolumbiya paytaxtında komendant saatının tətbiq olunduğunu elan etmişdir. Bu barədə EFE agentliyi xəbər verir.

Paytaxt meri komendant saatını ölkə Prezidenti İvan Duke Markesin xahişi ilə tətbiq etmişdir.

Bundan əlavə, polis Boqotanın mərkəzindəki Bolivar meydanında etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə etmişdir.

Agentliyin xəbərinə görə, etirazçıların əksəriyyəti tələbələrdir. Onlar Duke hökumətinin sosial-iqtisadi siyasətindən narazılıq edirlər.

Etirazçılar səs-küy yaratmaq üçün küçələrə tava və qazanlarla çıxırlar.

Bir gün əvvəl də Boqotada kütləvi aksiyalar keçirilmişdir. Nəticədə 3 nəfər həlak olmuş, 98 nəfər saxlanmışdır.

## Argentina 17 ölkədən səfirlərini geri çağırır



Argentinalı səfirlər ABŞ, Çin, Vatikan, İspaniya, Portuqaliya, habelə bir neçə Latın Amerikası ölkələri və beynəlxalq təşkilatları tərk etməli olacaqlar. Söhbət hökumətin qərarı ilə vəzifəyə təyin olunmuş "siyasi" diplomatlardan gedir. Onların səlahiyyətləri dekabrın 10-da Prezident Maurisio Makri istefaya gedəndə bitir.

Hökumətin rəsmi bülletenində qeyd olunur ki, vəzifəli şəxslər dekabrın 9-da Argentina ərazisinə qayıtmalıdırlar. Bu, ölkənin UNICEF, "Mercosur" ("Cənubi Amerika Gömrük İttifaqı") və "Aladi" ("Latın Amerikası İnteqrasiya Assosiasiyası") yanında nümayəndələrinə aiddir. Yeni səfirlər Meksikada və Cənubi Amerikanın praktiki olaraq bütün ölkələrində - Boliviya, Kolumbiya, Çili, Ekvador, Peru, Paraqvay, Uruqvay və Kosta-Rikada təyin olunacaqlar.

Xatırladaq ki, prezident seçkilərində Alberto Fernandes qələbə qazanmışdır. Dekabrın 10-dan etibarən o, dövlətin sabiq başçısı, vitse-prezident Kristina Fernandes Kirşnerlə birgə ölkəyə rəhbərlik etməyə başlayacaq.

## ABŞ interneti kəsdiyinə görə İranı cəzalandırdı



İranın Rabitə və İnformasiya naziri Məhəmməd Cavad Azəri Caromi etirazlar fonunda hökumətin elektrik verilişini kütləvi şəkildə kəsdikdən sonra ABŞ Maliyyə Nazirliyinin sanksiya siyahısına düşmüşdür.

Nazirliyin Xarici aktivlərə nəzarət idarəsi Carominin "İran rejimi tərəfindən genişmiqyaslı internet senzurunda" rolunu qeyd etmişdir. Məlumatda deyilir ki, "Caromi 2017-ci ilin ortalarında vəzifəyə təyin olunduqdan bəri rejimin internetdə repressiv senzura siyasətini irəli aparmışdır".

Sanksiyalara görə, nazirin ABŞ-dakı aktivləri dondurulacaq, ABŞ vətəndaşlarına və şirkətlərinə onunla biznes qurmaq qadağan ediləcək. Xatırladaq ki, İranda internet 16-18 noyabrda Ali Milli Təhlükəsizlik Şurasının qərarı ilə kəsilmişdi.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı kəndlərində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Hava necə olacaq




Azərbaycanda noyabrın 24-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Səhər havanın çiskinli olacağı, gün ərzində arabir yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 2-4°, gündüz 5-8° isti, Bakıda gecə 2-4°, gündüz 6-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 776 millimetr civə sütunundan 773 millimetr civə sütununa enəcək. Nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-4°, gündüz 5-10° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9° şaxta, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4° şaxtadan 1°-dək isti, gündüz 3-8° isti, dağlarda gecə 5-10°, yüksək dağlıq ərazilərdə 14-19° şaxta, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-4° isti, gündüz 5-10° olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında gündüz hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5°, gündüz 5-8° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 0-5° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament aparatının və İşlər idarəsinin kollektivləri deputat Araz Əlizadəyə bacısı

**LALƏ ƏLİZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

32 saylı Suraxanı üçüncü Dairə Seçki Komissiyasının kollektivi komissiyanın sədri Qasım Rzayevə bibisi

**XALİDƏ RZAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8909
Sifariş 3908
Qiymәti 40 qəpik